QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 197 (5917) **25 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Kadr islahatları daha uğurlu hədəflərə doğru

*Prezident İlham Əliyev:*
*"Kadr islahatları labüddür, bu, qaçılmazdır"*

Səh 8



7

Yeni Azərbaycan Partiyası Bələdiyyə seçkilərində iştirakla bağlı Mərkəzi Seçki Komissiyasına müraciət etdi

7

"Kadr islahatlarının struktur islahatları ilə paralel həyata keçirilməsi müsbət dəyişikliklərə səbəb olacaq"



9

Ermənistan yeni "Doing Business" hesabatında altı pillə geriləyib



# Prezident İlham Əliyev akademik Akif Əlizadəni qəbul edib və ona 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də akademik Akif Əlizadəni qəbul edib və ona 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib. AZƏRTAC xəbər verir ki, Akif Əlizadəni salamlayan Prezident İlham Əliyev dedi:***



-Hörmətli Akif müəllim, dünən siz öz ərizənizlə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsindən getmisiniz. Mən bu gün sizi dəvət etdim ki, apardığınız işlərə görə sizə təşəkkürümü bildirəm.

Akif Əlizadə: Xoş gördük, cənab Prezident. Sağ olun.

Prezident İlham Əliyev: Siz uzun illərdir ki, Azərbaycan elminin inkişafında çox önəmli rol oynayırsınız, həm sovet dönəmində, həm müstəqillik dövründə. Siz böyük alimsiniz, böyük təşkilatçısınız. Azərbaycanda elmi kadrların hazırlanmasında da çox böyük işlər





görmüsünüz. Sizin gördüyünüz işlər Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilir. Siz həm sovet dönəmində, həm də müstəqillik dövründə müxtəlif təltiflərə layiq görülmüsünüz.

Akif Əlizadə: Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Bu gün də Siz Azərbaycan elminin inkişafı üçün öz dəyərli töhfənizi verirsiniz. Biz Azərbaycan elminin inkişafı ilə bağlı sizinlə bir çox söhbətlər etmişik və mənim Azərbaycan elminin inkişafına münasibətimi bilirsiniz. Elmin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində son illər çox böyük işlər görülüb - institutların təmiri, müasir avadanlığın alınması. Hesab edirəm ki, bizim elmimizə ən gözəl hədiyyə müasir elmi kitabxanadır. Onun təməlini də mən qoymuşam, açılışında da iştirak etmişəm. Azərbaycan Milli Ensiklopediyasının hazırlanması işi də, bilirsiniz ki, mənim təşəbbüsümlə baş verir və ensiklopediya üçün çox gözəl müasir binanı da biz təqdim etdik.

Siz mənim tərəfimdən böyük dövlət mükafatları ilə, ordenlərlə təltif edilmisiniz və buna layiqsiniz. "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri ilə təltif olunmusunuz. Bu gün isə mən gördüyünüz işlərə görə sizi Azərbaycanın yüksək ordeni olan 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edirəm.

Akif Əlizadə: Cənab Prezident, Sizə təşəkkür edirəm.

Prezident İlham Əliyev 1-ci dərəcəli "Əmək" ordenini Akif Əlizadəyə təqdim etdi.

Prezident İlham Əliyev: Təbrik edirəm.

Akif Əlizadə: Sağ olun. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun.

Akif Əlizadə: Cənab Prezident, əlbəttə, hər şeydən əvvəl mən Sizə böyük etimada görə təşəkkür edirəm. Bilirsiniz, 60 ildən artıqdır ki, mən akademiyada çalışıram. Ulu Öndər ötən əsrin yetmişinci illərində məni yanına dəvət etdi, söhbət etdik. Orada xeyli söhbətimiz oldu.

Siz Azərbaycan üçün çox böyük işlər görmüsünüz, cənab Prezident. Mən çalışdım var qüvvəmlə, varlığımla dövlətimizə, elmimizə, Sizə xidmət edim, edirəm də, edəcəyəm də son nəfəsimə qədər.

Akademiyada, əlbəttə, Sizin dəstəyinizlə dirçəliş var. Siz böyük dəstək verdiniz, cənab Prezident. 2005-2006-cı illərdən sonra böyük, dinamik hərəkət başlandı, onun zirvəsi də o yeni kitabxana oldu. Ondan MDB-də yoxdur. O binalar Akademiyaya böyük hədiyyə idi.

Prezident İlham Əliyev: O vaxt Akademiyanın bəzi binaları başqa qurumlar tərəfindən zəbt edilmişdi. Mən onlardan alıb sizə qaytardım.

Akif Əlizadə: Bəli, qaytardınız. Onlar Akademiyanın bəzi institutlarını da zəbt edirdilər, özəlləşdirirdilər.

Prezident İlham Əliyev: Zəbt edirdilər, özəlləşdirirdilər, onları sökmək istəyirdilər. Çünki yerlər şəhərin mərkəzində idi. Orada binalar tikmək istəyirdilər.

Akif Əlizadə: Bəli, tamamilə düzdür. Mən Sizə müraciət etdim, Siz onların hamısını dərhal Akademiyaya qaytardınız. Sizə o böyük texnopark məsələsinə görə də təşəkkür edirəm. O, Akademiyanın gələcəyidir. İndi bizim orada hərbi təyinatlı işlərimiz var. Müdafiə Nazirliyi ilə bizim müqaviləmiz var. Sonra Sərhəd Qoşunları, Kənd Təsərrüfatı Nazirliyi ilə bizim çox gözəl işlərimiz var.

Prezident İlham Əliyev: Əlbəttə, bizim elmimiz gərək ümumi inkişafımıza təkan versin. Fundamental elmin inkişafı, əlbəttə, prioritetdir. Humanitar elmlərin inkişafı çox böyük əhəmiyyət kəsb edir, xüsusilə tarix elmləri. Çünki bizim bədnam qonşularımız tarixi saxtalaşdırmaqla məşğuldurlar.

Akif Əlizadə: Elədir.

Prezident İlham Əliyev: Əlbəttə, tətbiqi elmlərin inkişafına da böyük təkan verilməlidir. Kənd təsərrüfatında yeni texnologiyalar məhsuldarlığı bir neçə dəfə artırır. Biz gərək onları təhlil edək. Eyni zamanda, baxmalıyıq ki, bu texnologiyaların zərərli tərəfləri ola bilər. Yəni, biz özümüzü qorumalıyıq. Ona görə Qida Təhlükəsizliyi Agentliyi yaradılıb ki, Azərbaycan vətəndaşlarına təqdim edilən ərzaq məhsulları bütün yüksək keyfiyyətlərə malik olsun. Eyni zamanda, Sizin də uzun illər məşğul olduğunuz geologiya elmində nə qədər böyük irəliləyiş var. Baxın, biz indi hansı dərinlikdə quyular qazırıq? Biz nefti və qazı hansı dərinlikdən çıxarırıq? Siz yaxşı bilirsiniz ki, sovet vaxtında suyun təqribən 150 metr dərinliyindən aşağı gedə bilmirdik.

Akif Əlizadə: Bəli, 200 metrdən.

Prezident İlham Əliyev: Bu, əslində bizə imkan verdi ki, bu yataqları müstəqillik dövrü üçün saxlayaq. Əgər o vaxt o texnologiya olsaydı, "Azəri-Çıraq"dan, "Günəşli"dən bütün neft çıxarılacaqdı, "Şahdəniz"dən qaz çıxarılacaqdı. İndi orada dərinlik 400 metrdir. İndi başqa yeni kəşfiyyat layihələrində 700 metrə çatır. Biz Heydər Əliyev qazma qurğusunu tikdik, o, suyun dərinliyi min metr olan sahələrdə quyular qaza bilir. Ondan sonra layların dərinliyi 7 min metrə qədər gedir. Sovet vaxtında bu, yox idi. Mən həmişə deyirəm ki, o vaxt bu cür texnologiyanın olmaması bizi xilas etdi. Olsaydı, bütün ehtiyatları çıxaracaqdılar. Necə ki, quruda neftimizin hamısını çıxarıb apardılar. Azərbaycandan bir milyard tondan çox neft çıxarıldı. Sovet İttifaqı dağılanda biz nə gördük, dağılmış infrastruktur, neftlə çirklənmiş gölməçələr, Bibiheybət, Balaxanı, ekoloji fəlakət qoyub getdilər. İndi biz bunları təmizləyirik, nə qədər əziyyət çəkilir, nə qədər vəsait ayırırıq.

Akif Əlizadə: Çox böyük.

Prezident İlham Əliyev: Xoşbəxtlikdən o vaxt bu texnologiyalar yox idi. Bu gün var. Onu da deməliyəm ki, bu gün bizim geoloqlarımız qədər Azərbaycanın təbii sərvətlərini, yerin təkində mövcud olan ehtiyatları, dəniz altındakı yataqları bilən yoxdur.

Akif Əlizadə: Bəli, yoxdur.

Prezident İlham Əliyev: Mən sizə öz təcrübəmdən deyim, bilirsiniz ki, imzalanmış kontraktların bir hissəsinə xitam verildi. Çünki orada ehtiyatlar tapılmadı. Elə yataqlar var idi ki, xarici şirkət oraya gəlib quyu qazıb, boşa çıxdığına görə tərk edib gedirdi. Bizim geoloqlarımız deyirdilər ki, səhv yerdə qazırsınız, burada qazın. Ondan sonra digər şirkət gəlib bizim geoloqlarımızın dediyi yerdə quyu qazıb və yataq aşkar edib. "Abşeron" yatağı bunun əyani sübutudur. Biz "Abşeron" yatağı üzrə kontraktı imzalayanda tam əmin idik ki, orada böyük qaz yataqları var. Xarici bir şirkət gəldi, səhv yerdə qazdı, çıxdı getdi. Sonra başqa bir şirkət bu layihəni götürdü və iki ildən sonra biz "Abşeron"dan qaz, kondensat çıxaracağıq.

Akif Əlizadə: İnşallah.

Prezident İlham Əliyev: Ona görə elmin inkişafı istiqamətində görülmüş işlər nəticə verir. Kənd təsərrüfatının inkişafının, ekoloji tarazlığın qorunmasının çox böyük əhəmiyyəti var. Eyni zamanda, hesab edirəm ki, alimlərin məişət şəraitini yaxşılaşdırmaq üçün biz sizinlə böyük işlər görmüşük.

Akif Əlizadə: Biz orada işlərə başladıq. Masazırda artıq bir blok qalxıbdır, cənab Prezident.

Prezident İlham Əliyev: Bəli, alimlər səbirsizliklə bunu gözləyirlər.

Akif Əlizadə: Bəli, gözləyirlər. Sizə təşəkkür edirəm.

Prezident İlham Əliyev: Bunları bundan sonra da edəcəyik. Alimlərin maaşlarının artırılması üçün müvafiq göstərişlər verilibdir. Biz imkan daxilində bütün bu işləri görəcəyik.

Akif Əlizadə: Bütün alimlər adından Sizə təşəkkür edirəm. Hamısı razılıq bildirir, hamısı çalışır. Siz yaxşı bilirsiniz ki, indi əsas istiqamət, əlbəttə, innovativ elmdir, onun tətbiqidir. Tapşırıqlar verilibdir, əminəm ki, biz bu istiqamətdə bundan sonra da inkişaf edəcəyik. Bütün bunlara görə Sizə böyük təşəkkürümüz var.

# “Bu qərar üzv ölkələr tərəfindən Azərbaycana böyük hörmətin, etimadın təzahürüdür”

## *Prezident İlham Əliyev Vyetnamın vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Vyetnam Sosialist Respublikasının vitse-prezidenti xanım Danq Thi Nqok Thinhin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev:***

-Mən Sizi Azərbaycanda salamlamağa şadam. Ölkəmizə xoş gəlmisiniz.

Mən çox məmnunam ki, dost Vyetnam ölkəsi Qoşulmama Hərəkatı Zirvə Görüşünün işində yüksək səviyyədə iştirak edir. Bu, sizin ölkənizin belə mühüm beynəlxalq təşkilatda iştiraka böyük diqqət yetirdiyini sübut edir. Bildiyiniz kimi, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürməsi ilə bağlı qərar bütün üzvlər tərəfindən yekdilliklə qəbul olunub. Bu, üzv ölkələr tərəfindən Azərbaycana böyük hörmətin, etimadın təzahürüdür. Biz də sədr kimi qarşıdakı üç il ərzində Qoşulmama Hərəkatının bütün beynəlxalq məsələlərdə fəal iştirakının davamı üçün əlimizdən gələni edəcəyik. Həmçinin biz üzv ölkələrlə, o cümlədən sizin ölkənizlə ikitərəfli əlaqələri daha çox fəallaşdırmağı planlaşdırırıq. Mən şadam ki, münasibətlərimiz çox dinamik, uğurla inkişaf edir və qarşılıqlı hörmətə əsaslanır.

Mən sizin ölkənizə rəsmi səfərimi məmnuniyyətlə xatırlayıram. Mən ölkənizin sürətli inkişafından, mühüm sosial məsələlərin həlli və iqtisadiyyatın çox dinamik artımından təsirləndim. Həmçinin mənim Azərbaycanın ali təhsil müəssisələrinin Vyetnamda mühüm dövlət və ictimai vəzifələri tutan məzunları ilə ayrıca görüşüm oldu. Bu görüşdə mən vaxtilə Bakıda təhsil alan dostlarımızı Azərbaycana səfərə dəvət etdim. Onlar mənim dəvətimi qəbul edərək burada çox



yaxşı günlər keçirdilər. Bundan bir il sonra - 2015-ci ildə Vyetnam Prezidenti Azərbaycana rəsmi səfərə gəldi. Yəni, bu, münasibətlərin dinamikasının müəyyənləşdiyindən xəbər verir və sizin bugünkü səfəriniz də əlaqələrimizin dostluq xarakterini bir daha təsdiq edir. Əminəm ki, gələcəkdə də bizim dostluq əlaqələrimiz uğurla inkişaf edərək siyasi, iqtisadi, humanitar və digər sahələri əhatə edəcək. Bir daha xoş gəlmisiniz.

x x x

Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinh:

-Hörmətli cənab Prezident.

İlk növbədə, Sizinlə görüşməyimə çox şadam. Çox sağ olun ki, bizim nümayəndə heyətini qəbul etməyə vaxt tapmısınız. Azərbaycanda keçirilən Zirvə Görüşü zamanı bizim nümayəndə heyətinin səmimi qəbuluna görə təşəkkürümüzü bildirmək istərdim.

Bu, sizin gözəl və çox müasir ölkənizə - Azərbaycana mənim ilk səfərimdir. Bu Zirvə Görüşünün Azərbaycan tərəfindən təşkilini çox yüksək qiymətləndirirəm və ölkənizin inkişafında qazanılmış böyük uğurlar münasibətilə Sizi təbrik etmək istərdim.

Sizin dediyiniz kimi, Vyetnam da Azərbaycanla dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına və möhkəmlənməsinə böyük əhəmiyyət verir. Fürsətdən istifadə edib, bizim Baş katibimiz, Vyetnam Prezidenti Nquyen Fu Çonqun Sizə səmimi salamlarını və Vyetnama rəsmi səfərə dəvətini çatdırmaq istərdim. Vyetnam hökuməti və xalqı ölkənin müdafiəsi və quruculuğu işində Azərbaycan xalqı tərəfindən Vyetnam xalqına göstərilmiş böyük köməyi heç vaxt unutmur. Xüsusilə kadrlar hazırlanması işində, o cümlədən Siz dediyiniz kimi, neft mütəxəssislərinin hazırlanması sahəsində Azərbaycan Vyetnama böyük kömək göstərib.

Bu il ikitərəfli münasibətlərdə çox mühüm mərhələdir. Biz 1959-cu ilin iyulunda Prezidentimiz Xo Şi Minin Azərbaycana səfərinin 60 illiyini qeyd edirik. Mənim fikrimcə, bu səfər həmin andan bizim ölkələrimiz arasında münasibətlərin inkişafının təməlini qoyub. Müasir neft sənayesinin inkişafında Bakı Vyetnam üçün xüsusi nümunədir. Mən Sizin fikrinizlə tamamilə razıyam ki, gələcəkdə bütün sahələrdə münasibətlərimizin inkişafı üçün səy göstərməliyik. Mən, həmçinin təklif edirəm ki, tərəflər ən yüksək səviyyədə əldə edilmiş bütün razılaşmaların həyata keçirilməsini sürətləndirsinlər, idarələr, nazirliklər arasında, partiya və parlament xətti ilə əməkdaşlığı fəallaşdırsınlar. Biz elmi-texniki, iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya çərçivəsində də sıx əməkdaşlıq etməliyik ki, iqtisadiyyat və ticarət, investisiyalar, elm və texnologiyalar sahəsində münasibətlərimiz daha da inkişaf etsin. Yarana biləcək çətinliklərin vaxtında aradan qaldırılması, habelə əməkdaşlığın yeni dövrün tələblərinə uyğun irəliləməsi üçün tərəflər bu komissiyanın vaxtaşırı iclaslarının keçirilməsi imkanlarını qoruyub saxlamalıdırlar.

Siz qeyd etdiyiniz kimi, ölkələrimiz arasında münasibətlərin inkişafı üçün böyük potensial vardır. Buna görə də biz hesab edirik ki, tərəflər neft kimyası, neft-qaz sənayesi kimi sahələrdə əlaqələrin, ticarət, kənd təsərrüfatı, turizm sahələrində, humanitar sahədə əməkdaşlığın inkişafına böyük əhəmiyyət verməlidirlər. Mən, həmçinin təklif edirəm ki, tərəflər kadr hazırlığı, xüsusən neft mütəxəssisləri və mühəndislər hazırlığı sahəsində səmərəli praktiki əməkdaşlığı bərpa etsinlər.

Fürsətdən istifadə edib, 2019-2021-ci illərdə Vyetnamın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəklənməsinə görə Azərbaycana bir daha təşəkkür etmək istəyirik. Təklif edirəm ki, tərəflər beynəlxalq arenada, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək ənənəsini davam etdirsinlər.

Sonda xatirə şəkli çəkdirildi.

# “Bizim əlaqələrimiz qədim tarixə, ortaq mədəniyyətə əsaslanır”

*Azərbaycan Prezidenti İlham Əliyev ilə İran Prezidenti Həsən Ruhaninin görüşü olub*

***Oktyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev görüşdə bildirib ki, bizim əlaqələrimiz qədim tarixə, ortaq mədəniyyətə əsaslanır:***



-Hörmətli cənab Prezident, əziz dostum. Azərbaycana xoş gəlmisiniz.

Mən çox şadam ki, qardaş ölkə Qoşulmama Hərəkatının Zirvə Görüşündə ən yüksək səviyyədə təmsil olunur. Sabah bu önəmli təsisata Azərbaycan sədrlik edəcək. Çalışacağıq ki, üç il ərzində üzv dövlətlərin maraqlarını müxtəlif beynəlxalq tədbirlərdə layiqincə müdafiə edək. Əlbəttə, Sizin səfəriniz yaxşı fürsətdir ki, ikitərəfli gündəliyi müzakirə edək və gələcək birgə fəaliyyət üçün tədbirlər görək.



Bizim əlaqələrimiz qədim tarixə, ortaq mədəniyyətə əsaslanır. Bu gün bu əlaqələr ən yüksək səviyyədədir. Biz son bir neçə il ərzində Sizinlə on dəfədən çox görüşmüşük. Hər bir görüşün böyük əhəmiyyəti var və hər bir görüşdən sonra verilən tapşırıqlar icra olunur. Hesab edirəm ki, iki dövlət arasındakı əlaqələr hazırda ən yüksək zirvədədir.

Təbii ki, bu möhkəm əlaqələr bütün sahələrə müsbət təsir göstərib. Keçən il ticarət dövriyyəmiz 70 faizdən çox artmışdır. Hesab edirəm ki, bu, rekord göstəricidir. Bu ilin doqquz ayında isə yenə də 45 faiz artıb. Şadam ki, bizim birgə icra etdiyimiz Şimal-Cənub nəqliyyat dəhlizi uğurla fəaliyyət göstərir. Keçən il bu dəhlizlə 8 dəfədən çox yük daşınıb. Bu ilin doqquz ayında, mənə verilən məlumata görə, yükdaşımalar 70 faiz artıb. Sizinlə danışdığımız kimi hazırda, eyni zamanda, Cənub-Qərb nəqliyyat dəhlizi fəaliyyət göstərir. Qarşılıqlı sərmayə qoyulub. İran texnologiyaları əsasında avtomobil zavodu fəaliyyət göstərir. Biz bu zavodun açılışını birgə qeyd etmişdik. Avtobus istehsalı zavodunun tikintisi ilə əlaqədar indi layihələndirmə işləri aparılır. Neft-qaz sahəsində yaxşı əməkdaşlıq edirik. Eyni zamanda, keçən ilin avqustunda Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi həm beştərəfli, həm də ikitərəfli əlaqələrimizi daha da möhkəmləndirir. Mədəniyyət sahəsində ənənəvi əməkdaşlıq çox müsbətdir.

Yəni, elə bir sahə yoxdur ki, biz əməkdaşlıq etməyək və bu əməkdaşlıq nəticədə özünü göstərir. Nəticələr də göz qabağındadır. Əminəm ki, bugünkü görüş də bizim əlaqələrimizə yeni təkan verəcəkdir. Bir daha xoş gəlmisiniz.

x x x

İran Prezidenti Həsən Ruhani:

-Cənab Prezident, bu gün burada Azərbaycan dövlətinin və Azərbaycan xalqının qonağı olmağımızdan çox sevinirik. Sizi təbrik etmək istəyirəm, Qoşulmama Hərəkatına sədrlik sizə həvalə olunur. Çox sevinirik ki, Sizin ölkənizdə bu Zirvə Görüşünün keçirilməsi üçün çox yüksək təşkilati işlər aparılıb.

Mən çox şadam ki, hər dəfə Sizinlə görüşdükdə iki ölkə arasındakı əlaqələrdə müsbət bir halın, müsbət bir dəyişikliyin şahidi oluruq. Sizin də qeyd etdiyiniz kimi, müxtəlif sahələrdə, o cümlədən iqtisadi, mədəni, elmi və digər sahələrdə bizim əlaqələrimiz çox müsbət irəliləmişdir. İki ölkənin əlaqələrinin genişləndirilməsi üçün çox yaxşı iqtisadi əməkdaşlıq vardır və bu, hər iki ölkəni sevindirir. Düşünürəm, Azərbaycanda və İranda olan mövcud hakimiyyət və mövcud dövlətlər iki ölkənin mənafeyinin, iki ölkənin rifahının və xalqların rifahının qaldırılması üçün yaxşı işlər görürlər və bu, sevindiricidir. Mən Sizi əmin edirəm ki, İran dövləti və İran xalqı daim Azərbaycan dövlətinin və Azərbaycan xalqının yanında olub və olacaqdır. Ümid edirəm, bugünkü görüşümüzdə də hər iki tərəfi maraqlandıran mövzular haqqında fikir mübadiləsi aparacağıq.

Prezident İlham Əliyev: Təşəkkür edirəm.

# Prezident İlham Əliyev Kubanın Prezidenti Migel Diaz-Kanel ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Kuba Respublikasının Prezidenti Migel Diaz-Kanel ilə görüşüb



# “BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə nümayiş etdirdiyimiz həmrəylik bizi çox qane edir”

*Prezident İlham Əliyev Omanın Dövlət Şurası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayam Prezident İlham Əliyev dedi:***

-Xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Bilirəm ki, yenicə gəlmisiniz.

Yahya bin Məhfuz Əl-Munziri: Bəli.

Prezident İlham Əliyev: Ümidvaram ki, ölkəmizə səfəriniz çox maraqlı və məhsuldar olacaq.

Yahya bin Məhfuz Əl-Munziri: İcazə verin, fürsətdən istifadə edərək Zati-aliləri Qabusun salamlarını şəxsən Sizə və Azərbaycan xalqına çatdırım.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Mənim də salamlarımı və ən xoş arzularımı Zati-alilərinə və xalqına çatdırın. Əminəm ki, Bakıya səfəriniz ərzində şəhərimizlə tanış olacaqsınız, Azərbaycanın inkişafını görəcəksiniz və həmçinin Zirvə Görüşündə iştirak edəcəksiniz. Omanın Zirvə Görüşündə çox yüksək səviyyədə təmsil olunduğuna görə ölkənizə çox minnətdarıq. Bu, sizin bu qurumda üzvlüyə verdiyiniz əhəmiyyəti göstərir, eyni zamanda, biz bunu bizə olan dostluğun göstəricisi hesab edirik. Çünki ev sahibliyi edən ölkə olaraq biz bu mühüm beynəlxalq tədbiri təşkil etmişik və üç il ərzində bu quruma sədrlik edəcəyik. Sözsüz ki, biz Qoşulmama Hərəkatı çərçivəsində, eləcə də ikitərəfli formatda birlikdə işləyəcəyik.

Sizin səfəriniz həm də ikitərəfli əməkdaşlığımızın bəzi məsələlərini müzakirə etmək üçün yaxşı imkandır. Siyasi əlaqələrin səviyyəsi, siyasi dialoq və beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə nümayiş etdirdiyimiz həmrəylik bizi çox qane edir. Biz, həmçinin iqtisadi əlaqələrimizi genişləndirmək istəyirik, bugünkü əlaqələr orta səviyyədədir. Lakin düşünürəm ki, birgə səylərlə biz yaxşı irəliləyişə nail ola bilərik, çünki bizim bir-birimizə təklif edəcəyimiz çox şey var. Bununla biz ticari əlaqələrimizi genişləndirə bilərik. Biz bir çox əməkdaşlıq sahələrini tapa bilərik və mən çox şadam ki, indi Sizin ölkənin vətəndaşları Azərbaycana daha müntəzəm səfər edirlər.

Yahya bin Məhfuz Əl-Munziri: Bura onlar və ailələri üçün səfər etmək baxımından yaxşı yerdir. Prezident İlham Əliyev: Bəli, tamamilə doğrudur. Həmçinin sərbəst viza rejimi onlara istədikləri vaxt ölkəmizə gəlmək imkanı verir. Mən sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzu edirəm.

Yahya bin Məhfuz Əl-Munziri: Zati-aliləri, mən keçən il burada olmuşdum. Həmçinin parlamentinizin 100 illik ildönümünü qeyd etmək üçün tədbirlərə qatılmaq məqsədilə gəldiyim zaman Sizinlə görüşmək mənim üçün şərəf idi. Biz Azərbaycanda, Bakıda çox gözəl vaxt keçirdik. Bu səfər çərçivəsində biz Sizin rəhbərliyinizlə üç il müddətində Qoşulmama Hərəkatının uğur qazanması üçün bütün səyləri artıracağıq. Omanda infrastrukturumuza sərmayə yatırmaq üçün çox böyük imkanlar var, xüsusilə mən Dokon və digər layihələri nəzərdə tuturam. Ümid edirik ki, bu sahədə ölkələrimiz arasında müəyyən ikitərəfli razılaşmalar olacaq.

Zati-aliləri, Sizinlə görüşmək üçün mənə vaxt ayırdığınıza görə çox sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

# Azərbaycan ilə Koreya Xalq Demokratik Respublikası arasında əməkdaşlıq əlaqələri inkişaf edir

*Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisi Rəyasət Heyətinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Ali Xalq Məclisi Rəyasət Heyətinin sədri Çoe Ryonq Hae Koreya Xalq Demokratik Respublikasının Dövlət İşləri üzrə Komissiyasının Sədri Kim Çen Inın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan Respublikası ilə Koreya Xalq Demokratik Respublikası arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdiyi bildirildi, iqtisadi, humanitar sahələrdə əlaqələrin genişləndirilməsi üçün imkanların olduğu vurğulandı. Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haenin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminlik ifadə olundu.

Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri xalqımızın ümummilli lideri Heydər Əliyevin 1985-ci ildə Sovet İttifaqı rəhbərliyində çalışarkən Koreya Xalq Demokratik Respublikasına səfərinin məmnuniyyətlə xatırlandığını vurğuladı.

Söhbət zamanı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurlu olacağına əminlik ifadə edildi.

Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının Dövlət İşləri üzrə Komissiyasının Sədri Kim Çen Inın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının Kim Çen Ina çatdırılmasını xahiş etdi.

# Xalqa qayğının bariz təcəssümü

*Prezident İlham Əliyev: "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur"*



***Bəli, dövlət başçısının bu cavabı Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi, iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən, ötən illərdə dünyada hökm sürən maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, ölkəmizdə sosial layihələr və iqtisadi islahatların icrası zəifləmədi, hətta əvvəlki sürətlə davam etdirildi.***

Artıq 2019-cu il uğurla ömrünü başa vurmağa doğru gedir. Prezident İlham Əliyev çıxışı zamanı da bildirib ki, bu il də uğurlu il olacaq: "2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından, başqa illərdən fərqlənən il olacaqdır".

Bu gün ölkə Prezidentininq həyata keçirdiyi uğurul sosial siyasəti bunun sübutudur. Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

## Növbəti maaş artımı sosial siyasətin məntiqi göstəricisidir

Sentyabr ayından etibarən vahid tarif cədvəli ilə əməkhaqqı alanların maaşları 40 faiz artması və bu artımın, ümumilikdə, 450 min insana şamil edilməsi, bir daha onu sübut edir ki, Prezident İlham Əliyev verdiyi bütün vədlərin həyata keçirilməsində maraqladır, o cümlədən, sözügedən sosial siyasət qarşıdakı zamanlarda da davam etdiriləcək. Belə ki, Prezident İlham Əliyevin minimum əməkhaqqı məbləğinin artırılması ilə bağlı Sərəncamına əsasən, yeni vahid tarif cədvəlinə əsasən 1-ci kateqoriya üzrə minimum əməkhaqqı 250, 19-cu kateqoriya üzrə isə 906 manat müəyyənləşib. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əmək siyasəti şöbəsinin müdiri Əbülfət Məhərrəmovun sözlərinə görə, bu artım 450 min insanı əhatə edir.

Sentyabrın 1-dən maaşları artacaq, dövlət və ya özəl qurumlarda işləyənlərin, o cümlədən, Mərkəzi Seçki Komissiyası, Sədr - 3060 manat, Sədrin müavini - 2845 manat, Katib - 2110 manat, Komissiya üzvü - 1920 manat; Bakı və Sumqayıt şəhərlərinin səhiyyə şöbələri: baş mühasiblərin maaşı 336 manatdan 470 manata, baş mühasibin müavininin maaşı 315 manatdan 440 manata, bölmə rəhbəri və qrup rəhbərinin maaşı 308 manatdan 430 manata, böyük mühasib və böyük iqtisadçının maaşı 303 manatdan 420 manata, aparıcı mühasib və aparıcı iqtisadçının maaşı 297 manatdan 410 manata, mühasib və iqtisadçının maaşı 292 manatdan 405 manata, böyük xəzinədar və kompüter üzrə mütəxəssisin maaşı 270 manatdan 375 manata, avtomobil sürücüsünün maaşı 210 manatdan 320 manata, xəzinədar, katibə və kompüter operatorunun maaşı 210 manatdan 295 manata, gözətçi, xidməti otaqları yığışdıran və fəhlə kateqoriyasına aid edilən digər xidmətedici heyətin maaşı 180 manatdan 260 manata qaldırılıb. Dövlət Film Fondu: direktorun maaşı 798 manatdan 1110 manata, direktor müavininin maaşı 677 manatdan 945 manata, şöbə müdirinin maaşı 600 manatdan 835 manata, fondların baş mühafizəçisi, baş biblioqraf, baş redaktor və baş mütəxəssisin maaşı 523 manatdan 730 manata, aparıcı biblioqraf, aparıcı redaktor, aparıcı mütəxəssis və bərpaçı-rəssamın maaşı 495 manatdan 690 manata, arxivçi-biblioqraf, redaktor, fond üzrə elmi işçi və mütəxəssisin maaşı 484 manatdan 675 manata, avtomobil sürücüsünün maaşı 210 manatdan 320 manata, kinomexanik, katibə-kompüter operatoru və kompüter operatorunun maaşı 210 manatdan 295 manata, yanğınsöndürən, gözətçi, film daşıyıcısı, xidməti otaqları yığışdıran və dalandarın maaşı 180 manatdan 260 manata qaldırılıb.

Təhsil Nazirliyinin Ərazi Maliyyə Hesablaşma Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin və Məhkəmə Psixiatrik-Ekspertiza Mərkəzi, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki Bakı Şəhər Məktəbəqədər təhsil müəssisələri və uşaq evləri idarəsi.

Qeyd edək ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının, Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Tibb Baş İdarəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılıb.

Bax, budur uğrlu inkişaf! Budur, Azərbaycan Prezidentinin öz xalqına diqqəti, qayğısı. Və bunun müsbət nəticəsidir ki, XALQ-İQTİDAR birliyinin möhkəmliyi!

## Sözü ilə əməli vəhdət təşkil edən LİDER

Göründüyü kimi, görülən hər bir iş, atılan hər bir addım, Azərbaycan dövlətinin uğurlu inkişafı, xalqın rifahının yaxşılaşmasına xidmət edir. Və bu gün Azərbaycanın daha güclü olması üçün ardıcıl uğurlu siyasəti davam etdirmək son 16 ildə görülən işlərin uğurlu nəticələri bir daha təsdiqləyir. Bu vədlərin ardıcıl yerinə yetirilməsi nəticəsində, Azərbaycan son on altı ildə öz dinamik inkişafını təmin edib, mühüm transmilli enerji və nəqliyyat layihələrini icra edib, planetin azsaylı kosmik dövlətləri sırasına daxil olub, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin əsaslı inkişafına nail olunub. Əhalinin rifahı durmadan yüksəlib, ölkədə 3 milyon insanı əhatə edən böyük sosial paketin həyata keçirilməsinə başlanılıb. Cəmiyyəti düşündürən istənilən məsələdə Prezident xalqla həmrəylik nümayiş etdirib və irəli sürülən məsələlərin həlli ilə bağlı operativ tədbirlər həyata keçirib.

"Opinion Way"in "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5 faizi, bütövlükdə, müsbət cavab verməsi də bunu təsdiq edən faktordur. Məsələ ondadır ki, əksər beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları son bir ildə Azərbaycanda gedən sosial-iqtisadi prosesləri, həyata keçirilən islahat kursunu böyük maraqla izləyir və çox müsbət səciyyələndirirlər. Dünya Bankının "Doing Business" hesabatında da Azərbaycan hazırda dünya miqyasında 25-ci yerdə qərar tutub. Aparıcı beynəlxalq reytinq agentlikləri Azərbaycanın sosial-iqtisadi və maliyyə durumunu yüksək qiymətləndirir. Odur ki, Prezident İlham Əliyevin Azərbaycan xalqının maraqlarını əks etdirən sosial-iqtisadi siyasətinin ölkə əhalisi tərəfindən bəyənilməsi tam təbii hesab olunmalıdır.

2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından, başqa illərdən fərqlənən il olacağını bəyan edən Prezidentin cari il ərzində, təqdim etdiyi sosial paket bu siyasətin yüksək səviyyədə reallaşmasını, ölkədə sosial inkişaf, sosial rifahın yüksəldilməsi istiqamətində bir-birinin ardınca inqilabi xarakterli addımların atılmasını təmin edib.

"Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği cari il sentyabrın 1-dən 40 faizdək artırılaraq, 180 manatdan 250 manata çatdırılıb. Bu, Azərbaycan dövlətinin sosial siyasətinin növbəti uğuru olmaqla, ölkəmizdəki sosial inkişafın daha bir göstəricisidir.

Əslində, dövlət başçımız bu siyasətini 16 ildir ki, davam etdirir, ancaq hazırkı məqamda həmin siyasət daha aşkar görünməkdədir. Yəni Prezident İlham Əliyev deyərkən, xalq yalnız dövlət başçısı deyil, həm də bir qayğıkeş şəxsiyyət, böyüklük rəmzi, ağsaqqala, ağbirçəyə sonsuz hörmət bəsləyən Vətən övladı görür. Və həmişə də bu qayğı görünməkdədir. Hələ 2016-cı ilin Aprel zəfəri zamanı Azərbaycan xalqı bir yumruq kimi birləşib, cəbhədə yağı düşmənə layiqli cavab verən, işğal altındakı torpaqlarımızın bir hissəsini azad edən Ordumuza möhtəşəm dəstəyini göstərdi. Bu dəstək Ali Baş Komandanımıza verilən dəstək idi və hər kəs veriləcək əmrə tabe olduğunu nümayiş etdirirdi. Bu dəstək dağı belə yerindən oynadan xalqın dəstəyi, birliyi idi! Bu dəstəyin, xalqın dövlətinə olan etibar və inamının sübutudur.

## Bu inamın sübutu son 16 ildə çox güclü və sürətli inkişaf edən Azərbaycandır

Son 16 ildə əldə olunan uğurlara diqqət yetirmək kifayətdir ki, bu realllığı görəsən. Çox güclü və sürətli inkişaf yolu keçən və bu illərdə əldə edilən uğurlar, qarşıya qoyulmuş vəzifələr, bütövlükdə isə, ölkəmizin rəhbərliyi tərəfindən atılan hər bir addım, bilavasitə xalqımızın rifah halının gücləndirilməsinə, müstəqilliyimizin təməllərinin daha möhkəm təməllərə söykənməsinə hesablanıb. İstər daxili, istər xarici, istər sosial-iqtisadi, istərsə də digər sahələri əhatə edən bu yüksəlişin əsasında isə, əlbəttə ki, xalq-iqtidar vəhdəti dayanıb.

Azərbaycan dövlətinin sosial inkişaf sahəsində əldə etdiyi uğurlu nəticələr, deməyə əsas verir ki, Azərbaycan uğurlu inkişafdadır. Ən başlıcası isə, qazanılan iqtisadi uğurlar sosial siyasətin genişlənməsinə yeni imkanlar yaradır. Çox qürurverici ənənədir ki, həyata keçirilən sosial siyasət tamamilə Azərbaycan vətəndaşının həyatını müsbət istiqamətdə dəyişdirməyə, insanların özlərini güvənli hiss etməyə sövq edir. Və qətiyyətlə bildirmək olar ki, Cənab İlham Əliyevin yeritdiyi kurs, nəinki böyük hərflərlə qeyd ediləcək İSLAHAT-dır, hətta islahata inqilabi yanaşma nümunəsidir.

Bir sözlə, bütün bunlar, bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

***RƏFİQƏ KAMALQIZI***

# BMT Baş Assambleyasının prezidenti: "Dayanıqlı İnkişaf Məqsədlərinin icrası yönündə Azərbaycan tərəfindən atılan addımlar təqdirəlayiqdir"



Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Əli Əhmədov qonağı 24 oktyabr - Birləşmiş Millətlər Təşkilatı günü münasibətilə təbrik edib. Baş Nazirin müavini bildirib ki, Azərbaycan BMT-nin fəal üzvlərindən biri kimi bu təşkilatın fəaliyyətində özünəməxsus yeri ilə seçilir. Azərbaycan 1992-ci ildə BMT-yə üzv olduqdan sonra təşkilatın müxtəlif qurumları ilə səmərəli əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm sənədlər imzalanıb.

Söhbət zamanı Əli Əhmədov son illər Azərbaycanda bütün sahələrdə mühüm nailiyyətlərin əldə olunduğunu, respublikamızın dünyanın sürətlə inkişaf edən ölkələrdən birinə çevrildiyini, bütün sahələrdə mütərəqqi islahatların aparıldığını qeyd edib.

Azərbaycan-BMT əlaqələrinin önəmindən danışan Baş Nazirin müavini təşkilatın növbəti illərdə də ölkəmizdə həyata keçirilən müxtəlif iqtisadi və sosial inkişaf proqramlarına töhfə verəcəyinə əminliyini ifadə edib. Bu istiqamətdə BMT-nin Azərbaycan nümayəndəliyinin rolunun vacibliyini diqqətə çatdırıb.

Baş Nazirin müavini qonağa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verərək bildirib ki, Azərbaycanın BMT-yə üzv kimi qəbul olunması Ermənistanın ölkəmizə qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətinin münaqişə bölgəsində baş verən hadisələrə cəlb edilməsi və dünya ictimaiyyətində obyektiv rəyin formalaşdırılması istiqamətində vacib rol oynayıb. 1992-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilib. İşğalçı ölkənin silahlı qüvvələrinin Azərbaycanın zəbt olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilib. Amma təəssüf ki, bu qətnamələr indiyədək icra olunmayıb.

Azərbaycanda olan sürətli inkişafı əyani şəkildə gördüklərini deyən BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande Azərbaycan tərəfindən artıq ikinci dəfə Birləşmiş Millətlər Təşkilatının Yüksək Səviyyəli Siyasi Forumunda Könüllü Milli Hesabatın təqdim olunmasını yüksək qiymətləndirib. O bildirib ki, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası yönündə Azərbaycan tərəfindən atılan addımlar təqdirəlayiqdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin region üçün çox böyük təhlükə olduğunu deyən Ticani Məhəmməd-Bande BMT ilə yanaşı, qurumun Baş Assambleyasının da münaqişənin həllində vacib rol oynayacağına əminliyini ifadə edib. O, bu münaqişənin tezliklə öz həllini tapacağına ümidvar olduğunu deyib.

# "Kadr islahatlarının struktur islahatları ilə paralel həyata keçirilməsi müsbət dəyişikliklərə səbəb olacaq"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin Prezident seçkilərindən sonra Milli Məclisdə keçirilən andiçmə mərasimində geniş çıxış edərək, ötən dövrün geniş təhlilini verməklə yanaşı, gələcək prioritetlərdən də danışmışdı. Eyni zamanda, ölkə başçısı qarşıda duran vəzifələr və inqilabi islahatların anonsunu da vermişdi.

Bunu Trend-ə açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.

O bildirib ki, dövlət başçısının andiçmə mərasimində çıxışı zamanı həm struktur, həm kadr, həm də daim yeniliyə, ümumiləşməyə, inkişafa xidmət edən islahatlarla bağlı anonsları ardıcıl olaraq həyata keçirilir: "İnkişaf özü davamlı proses olduğu üçün, inkişafın davamlılığını təmin etmək üçün islahatlar həyata keçirilməlidir. Biz ölkə başçısı tərəfindən həm daxili, həm xarici, həm iqtisadi, həm siyasi, həm sosial, həm hüquqi dövlət quruculuğu, həm də digər sahələrlə bağlı mütəmadi şəkildə islahatların şahidi oluruq. Bu islahatların mərhələli şəkildə həyata keçirilməsi və müsbət bəhrə verməsi çox sevindiricidir".

Ekspertin sözlərinə görə, Prezident İlham Əliyevin xalqla təmasda olarkən, müxtəlif formatlarda çıxışında verdiyi sözlərin ardıcıl icrası göstərir ki, ölkə başçısı planlı, düşünülmüş siyasət yürüdür. R.Quliyev qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən hazırda həm kadr, həm də struktur islahatları ilə bağlı atılan addımlar idarəetmə sistemində aparılan yeniliyin növbəti mərhələsidir.

Həyata keçirilən islahatların yeniləşməyə, inkişafa xidmət etdiyini xüsusi vurğulayan siyasi ekspert bildirib ki, inqilabi dəyişikliklər cəmiyyətdə diskomfort yaratmır: "Əksinə, həyata keçirilən islahatlar, inqilabi dəyişikliklər cəmiyyət tərəfindən alqışlanır və dəstəklənir. Prezident İlham Əliyevin son günlər bu istiqamətdə atdığı addımlar struktur islahatlarının daha da modernləşməsinə, şəffaflığına, idarəçiliyin optimallaşmasına, çevikliyinə xidmət edir. Ölkəmizdə bu cür islahatlarla bağlı təcrübə var. Belə ki, bundan əvvəl də, bir-birini təkrarlayan idarəçilik mexanizmində uyğunsuzluq olan strukturların ləğvi və birləşdirilməsinin şahidi olmuşuq. Bütün bunlar əlbəttə ki, idarəetmənin optimallaşdırılmasına xidmət edir".

Mərkəz rəhbəri əlavə edib ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən son struktur islahatları da, sosial inkişafımızı şərtləndirən, iqtisadi islahatlar yönündə atılan çox ciddi, inqilabi addımlardır: "Mən əminəm ki, bu addımlar idarəçiliyin daha da optimallaşdırılmasına şərait yaradacaq. Kadr islahatlarının struktur islahatları ilə paralel şəkildə həyata keçirilməsi daha çox yenilik, çeviklik, müsbət dəyişikliklərə səbəb olacaq. Hazırda "Resurs" Analitik İnformasiya Mərkəzi tərəfindən müəyyən sosial qruplarda islahatların doğurduğu reaksiyaları müəyyən formada analiz etməyə çalışmışıq. Nəticələrə əsasən, deyə bilərik ki, aparılan islahatlar əhali tərəfindən yüksək qiymətləndirilir".

# Yeni Azərbaycan Partiyası Bələdiyyə seçkilərində iştirakla bağlı Mərkəzi Seçki Komissiyasına müraciət etdi

Yeni Azərbaycan Partiyası 23 dekabr 2019-cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərində iştirakla bağlı Mərkəzi Seçki Komissiyasına müraciət etdi. Yeni Azərbaycan Partiyasının İdarə Heyəti Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq Bələdiyyə seçkilərində iştirakla bağlı qərar qəbul etmişdir. İdarə Heyətinin qəbul etdiyi qərarda göstərilir ki, Yeni Azərbaycan Partiyası 23 dekabr 2019-cu il tarixdə Azərbaycan Respublikasında keçiriləcək Bələdiyyə seçkilərində ölkəni əhatə edən bütün bələdiyyələr üzrə seçkilərdə iştirak etsin. Mərkəzi Seçki Komissiyasına ünvanlanmış məktubda qeyd olunur ki, yerli özünüidarəetmə orqanlarına keçirilən seçkilər vətəndaşların demokratik proseslərdə iştirakı baxımından xüsusi əhəmiyyət kəsb edir. Yeni Azərbaycan Partiyası ölkəmizdə keçirilən bütün Bələdiyyə seçkilərində fəal iştirak edərək əhəmiyyətli uğurlara imza atmışdır. Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin bu qərarı əldə olunmuş uğurları daha da genişləndirmək, vətəndaşların Bələdiyyə seçkilərində fəal iştirakını təmin etmək məqsədilə qəbul etmişdir.

# YAP Xətai rayon təşkilatında sosial şəbəkələrdə fəallığın artırılmasına dair müzakirələr aparılıb



Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının ilk ərazi təşkilatlarının nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov tədbirdə çıxış edərək günümüzün əsas çağırışlarından olan sosial şəbəkələrdə fəallığın artırılmasından, Azərbaycanın bugünkü uğurlarından danışıb. Bildirib ki, 28 illik müstəqillik tarixinə malik Azərbaycanın uğurlarının miqyası geniş olmaqla yanaşı, gələcəyə daha böyük hədəflərlə irəliləməyə əsas yaradır. Təəssüf ki, Azərbaycanı istəməyən qüvvələr çirkin niyyətlərini, uğurlarımıza kölgə salmaq cəhdlərini, ən əsası dünyada sabitlik, təhlükəsiz ölkə kimi qazandığı imicə zərbə vurmaq istəklərini daxili bədxahlarımızın vasitəsilə gerçəkləşdirməyə səy göstərirlər.



H.Mirələmov diqqəti oktyabrın 19-da keçirilən icazəsiz aksiyaya yönəldərək bildirib ki, bir qrup təxribatçı ünsürlər xaricdən aldıqları qrantların müqabilində ölkədə qarşıdurma yaratmağa, sabitliyi pozmağa can atırlar. Lakin xalq-iqtidar birliyinin möhkəmliyi, asayişi yüksək səviyyədə qoruyan hüquq-mühafizə orqanlarının fədakarlığı sayəsində bu cəhdlərin qarşısı qətiyyətlə alındı. Azərbaycan xalqı bu ünsürlərin əsl sifətini bir daha gördü. Belə qüvvələrə qarşı sərt mövqeyimizi sosial şəbəkələrdə bildirməli, onların əsassız təbliğatlarını Azərbaycanın reallıqları ilə cavablandırmalıyıq. YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, Azərbaycana bu gün hansı sahədən baxsaq böyük inkişafın, tərəqqinin şahidi olarıq. Ölkəmizin bu gün Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun, siyasi çəkisinin göstəricisidir. Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin həyata keçirdiyi alternativi olmayan islahatları beynəlxalq səviyyədə təqdir olunur, nüfuzlu maliyyə qurumlarının hesabatlarında mövqeyinin möhkəmlənməsini şərtləndirir. Ölkəmizin 28 illik müstəqillik tarixində əldə etdiyi davamlı uğurlar harada yaşamasından asılı olmayaraq, bütün soydaşlarımızda qürur hissi yaradır. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, 10 milyonluq ölkəyik.

V.Rəhimzadə Azərbaycanı istəməyən qüvvələrin sosial şəbəkələrdə apardıqları əsassız, qərəzli təbliğata qarşı hər birimizin vətəndaşlıq təəssübkeşliyindən bəhrələnərək sərt mövqeyimizi ortaya qoymağımızın vacibliyini bildirib. Bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı təşkilat olan Yeni Azərbaycan Partiyasının sıralarında birləşdirdiyi 750 minə yaxın üzvün hər biri bu işdə öz fəallığını nümayiş etdirməli, Azərbaycan reallıqlarının, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçısına çevrilməlidirlər. Azərbaycanın uğurlarına qara eynəkdən baxmağa adətkar olan dağıdıcı ünsürlər 19 oktyabr icazəsiz aksiyaları ilə hansı məqsədə və kimlərə xidmət etdiklərini bir daha nümayiş etdirdilər.

Xətai Rayon İcra Hakimiyyəti Aparatının şöbə müdiri Pənah İmanov Azərbaycanın gündən-günə güclənən iqtisadi qüdrətindən, beynəlxalq aləmdə möhkəmlənən mövqeyindən geniş bəhs edərək bildirib ki, bu gün dünyaya səs salan yeniliklərimiz, imza atdığımız uğurlar Azərbaycan dövlətinin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir. P.İmanov sosial şəbəkələrdə fəallığın artırılması istiqamətində göstərilən səylərdən geniş bəhs edərək, YAP Xətai rayon təşkilatının özündə birləşdirdiyi hər bir ərazi ilk partiya təşkilatının üzvlərini fəal olmağa çağırıb: "Bu, bizim ümumi işimizdir. Çalışmalıyıq ki, Azərbaycanın uğurlarına kölgə salmağa çalışan xarici və daxili bədxahlarımızın əsassız cəhdlərini reallığa söykənən faktlarımızla cavablandıraq. Dövlətimizin başçısı İlham Əliyevin daim çıxışlarında qeyd olunduğu kimi, heç bir xarici qüvvə xalqımızın iradəsinə təsir göstərmək imkanında deyil. Azərbaycan müstəqil dövlətdir. Atdığı hər addımında müstəqil siyasət yürütdüyünü təsdiqləyir". Tədbirə yekun vuran Hüseynbala Mirələmov gəncləri daha fəal olmağa çağırıb. Bildirib ki, bu günün gəncləri müstəqilliyimizin ilk illərində ölkəmizə rəhbərlik edənlərin Azərbaycanı hansı faciələrlə üz-üzə qoymalarından xəbərsizdir. Onlara müstəqillik yolumuzun heç də hamar olmadığı, ən əsası bu gün hakimiyyətə can atan həmin ünsürlərin bir illik iqtidarı dövründə ölkəni hansı duruma saldıqları barədə dolğun məlumatlar verilməlidir.

# Kadr islahatları daha uğurlu hədəflərə doğru

## Prezident İlham Əliyev: "Kadr islahatları labüddür, bu, qaçılmazdır"

***Bu gün müstəqil Azərbaycan inkişafının ən qüdrətli dövrünü yaşayır. Məhz bu inkişaf bütün dünyaya örnək olan İlham Əliyev siyasətinin uğurlu nəticəsidir ki, GÜCLÜ DÖVLƏT-GÜCLÜ XALQ birliyi nəticəsində, getdikcə möhkəmlənir. Hər bir vətəndaş da dövlət siyasətində xalq-iqtidar vəhdətinin uğurlu nəticəsinin şahidi olur.***

Sözsüz ki, hər bir ölkə uğurlu nəticələrə o ölkəyə rəhbərlik edən liderin düşünülmüş siyasəti nəticəsində nail olur. Bu gün Azərbaycanın son 16 ildə əldə etdiyi uğurlu iqtisadi nəticələr, məhz Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində əldə olunub. Dövlət başçısı çıxışında da bildirib ki, hər bir ölkə nəticələrilə öyünə bilər: "Ancaq biz bilirik ki, ehtiyatlarımız çoxdur. Onu da bilirik ki, əgər hər hansı dövlət və ya özəl quruma təmiz, bilikli və Vətənə bağlı kadr gətirilirsə, biz orada dərhal dəyişiklikləri görürük. Hesab olunurdu ki, bizdə elə sahələr var ki, orada islahatlar aparıla bilməz. Onlardan biri də vergi sistemidir. Hesab olunurdu ki, necə deyərlər, o, biabırçı vəziyyət əbədi qalmalıdır və burada heç bir irəliləyişə nail ola bilmərik. Amma hər kəs gördü ki, biz vəziyyəti islahatlar yolu ilə düzəldə bildik. Büdcəyə 100 milyonlarla manat vəsait daxil olub, digər sahələrdə də, həmçinin".



### "Bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır"

"Bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır. İndiki iqtisadi artım templəri məni qane etmir. Düzdür, bunun obyektiv səbəbləri var".

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbulu zamanı etdiyi çıxışında deyib.

Ölkə başçısı bildirib ki, hazırda neftin hasilatının bir qədər aşağı düşməsi nəticəsində, ümumi daxili məhsulda müəyyən dərəcədə yavaşıma var: "Ancaq doqquz ayda ümumi daxili məhsul 2,5 faiz artıb, amma qeyri-neft sektorunda 3,5 faiz. Hesab edirəm ki, bu, pis göstərici deyil. Ancaq bizi qane etmir. Düzdür, kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Bu, çox müsbət hallardır. Ancaq biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün bundan sonra da çox ciddi islahatlar aparılmalıdır".

### "Mən xalqın dəstəyinə arxalanıram, xalqa güvənirəm"

Ümumiyyətlə, ölkə Prezidenti İlham Əliyev hakimiyyətdə olduğu son 16 il müddətində, daima xalqla birbaşa təmasda olub. İstər xarici siyasətlə bağlı fəaliyyətdə, istərsə də daxili idarəetmədə Prezident İlham Əliyev sadə vətəndaşlara söykənir. "Mən bütün azərbaycanlıların prezidentiyəm" şüarını gerçəyə çevirir.

Dövlət başçısı oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib ki, Prezident kimi fəaliyyəti dövründə göstərilən heç bir təzyiqin aparılan siyasətə təsiri ola bilməz: "Bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq. Son müddət ərzində, keçirilən rəy sorğuları göstərir ki, bizim hökumətimizə ictimai dəstək nə qədər yüksəkdir. O cümlədən, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında, - mən bunu səsləndirdim, - hakimiyyətə olan inam baxımından, biz dünya miqyasında ön sıralardayıq. Ona görə iqtisadi müstəqillik bizim üçün əsas vəzifə olaraq qalır. Buna nail olmaq üçün biz gələcək illərdə çox böyük səylər göstərməliyik".

Bütün bunlar, bir daha sübut edir ki, aparılan islahatlar xalqın firəvan yaşayışına hesablanan uğurlu addım olmaqla, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim xalqının yanındadır. Çünki Prezident İlham Əliyevin 16 illik prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub.

### Kadr islahatları - inqilabi islahatların məntiqi davamıdır

Belə ki, dövlət başçısı 2018-ci ilin prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimində səsləndirdiklərini 2019-cu il üçün görüləcək işlərin bir növ, anonsu olaraq dəyərləndirmək mümkündür. Prezident İlham Əliyev həmin çıxışında ciddi islahatların aparılacağını, həmçinin, islahatların dərinləşəcəyini bildirərək, məsələni sırf vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşdırılmasının vacibliyi kontekstində izah etmişdi. Bu gün aparılan islahatlar da ölkə başçısının andına və vədinə sadiqliyini bir daha göstərməklə yanaşı, həmçinin, bu islahatlar bu ilin əvvəlindən həyata keçirilən və yeni vüsət alan inqilabi islahatların məntiqi davamıdır.

Bir sözlə, Prezident İlham Əliyevin yeritdiyi kurs, nəinki böyük hərflərlə qeyd ediləcək İSLAHATdır, hətta islahata inqilabi yanaşma nümunəsidir, hakimiyyətin inqilabıdır və söz yox ki, bu inqilab, bilavasitə ölkəmizin, xalqımızın, gələcəyimizin daha möhkəm təməllərə söykənəcəyi gerçəkliyini, fakt olaraq, ortaya qoydu. Ölkə rəhbərinin, xüsusilə, gəncləşdirmə siyasətinin vacibliyini vurğulaması, həmin istiqamətdə əməli işlər həyata keçirməsi, qərarlar qəbul etməsi, eləcə də, nazirlik strukturları qarşısında kifayət qədər əsaslı şərtlər qoyması, həyata keçirilən islahatların bundan sonra da davamlı olacağı xəbərini verməkdədir.

Ən əsas məqam isə, Prezident İlham Əliyev dövlətin müvafiq strukturlarının rəhbərləri ilə görüşlərində bir əhəmiyyətli faktı hər dəfə xatırladır və vurğulayır ki, kimlərsə həyata keçirilən islahatlara biganə və etinasız yanaşırsa, həmin şəxslər barədə ölçülər götürülməli, ölkə başçısı şəxsən (!-R.H.) məlumatlandırılmalıdır. Dövlətin tətbiq etdiyi qətiyyətli islahatlar siyasətinə şəxsi maraqlarına görə kölgə salmağa çalışanlar, dövlətə, xalqa sədaqət andı içərək, sonradan xilaf çıxanlar, qəsdən xalqı hakimiyyətdən narazı salan insanlar dərhal öz layiqli cəzalarını almalıdırlar!

### "Heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz"

"Hələ Ulu Öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm. Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik".

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

Dövlət başçısı çıxışı zamanı bildirib ki, bizim siyasi müstəqilliyimizin, o cümlədən, xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir: "Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən, siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət

# Kadr islahatları daha uğurlu hədəflərə doğru

## Prezident İlham Əliyev: "Kadr islahatları labüddür, bu, qaçılmazdır"

aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır".

Dövlət başçısı, onu da vurğulayıb ki, bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır: "İndiki iqtisadi artım templəri məni qane etmir. Düzdür, bunun obyektiv səbəbləri var. Hazırda neftin hasilatının bir qədər aşağı düşməsi nəticəsində, ümumi daxili məhsulda müəyyən dərəcədə yavaşıma var".

### "Bir imtiyaz var: vergini vermək, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək"

Prezident İlham Əliyev bəzi dövlət məmurlarının öz şəxsi bizneslərini üstün tutduqlarını, daha doğrusu, haqsız rəqabət apardıqlarını da vurğulayıb: "Biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa heç bir ödəniş ola bilməz. Eyni zamanda, haqsız rəqabət, bu da bizim üçün böyük yaradır. Buna təkan verən dövlət məmurlarıdır, hansıların ki, biznes maraqları var. Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarırlar, bəzi hallarda şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olub ya bizneslərini satsınlar, ya da ki, çıxıb getsinlər. Buna da yol vermək olmaz, heç kimdən çəkinmədən.

Mən bilirəm, sizə nazir kimi, xüsusilə, Vergilər naziri kimi, bəziləri təzyiqlər göstərməyə çalışırdılar ki, bizim biznesimizə dəymə. Mən bilirəm ki, siz onların qarşısında çox mətanətlə çıxış etmişiniz. Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan, bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib ola bilməz. Bir imtiyaz var: vergini vermək, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək".

### Əsl siyasət konkret, real iş görməkdən ibarətdir

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

Bəli, bu, həqiqətən də, belədir! Bu gün Cənab Prezidentin hər zaman olduğu kimi, sözü ilə əməli tam üst-üstə düşür. Ölkə Parezidenti İlham Əliyev Cənablarının dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə, haqlı olaraq fəxr edə bilər".

Məhz xalqımız öz LİDERİNƏ arxalandığı üçün öz Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişaf və tərəqqisinə doğru inamla irəliləyir.

**RƏFİQƏ KAMALQIZI**

# Ticani Məhəmməd-Bande: "Azərbaycan BMT çərçivəsində fəal rol oynayır"



***Xarici İşlər naziri Elmar Məmmədyarov Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande ilə görüşüb. Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.***

Milli səviyyədə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi barədə məlumat verən nazir Elmar Məmmədyarov ölkəmizdə həyata keçirilən iqtisadi və sosial təmayüllü islahatlar barədə danışıb. Nazir Elmar Məmmədyarov Azərbaycanın dayanıqlı inkişaf üzrə 2030-cu il gündəliyinin icrasına tam sadiq olduğunu qeyd edib və Azərbaycanın Cənub-Cənub istiqamətində əməkdaşlığın və iqtisadi inteqrasiyanın təşviq edilməsi və canlandırılması istiqamətində konkret və praktiki addımların atılmasına əhəmiyyət verdiyini ifadə edib.

Nazir Elmar Məmmədyarov, həmçinin sədrliyimiz dövründə Qoşulmama Hərəkatı və Qrup 77 arasında əməkdaşlığın genişləndirilməsi imkanlarının nəzərdən keçiriləcəyini bildirib. BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün mükəmməl səviyyədə təşkilinə, qonaqpərvərliyə və ev sahibliyi etməsinə görə Azərbaycan Respublikası Hökumətinə təbriklərini ifadə edib. O, ölkəmizin BMT çərçivəsində fəal rolunu vurğulayıb. Azərbaycanın dayanıqlı inkişaf məqsədlərinin icrası ilə bağlı ikinci könüllü milli hesabatının təqdim edildiyi məmnunluqla qeyd edilib. Görüşdə tərəflər qarşılıqlı maraq doğuran və BMT-nin gündəliyində duran məsələlər barəsində geniş fikir mübadiləsi aparıblar.

# Azərbaycanın Müdafiə naziri NATO-nun toplantısında iştirak edəcək



Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasına töhfə verən ölkələrin Müdafiə nazirləri səviyyəsində NATO-nun Mənzil-Qərargahında keçiriləcək iclasda iştirak etmək üçün oktyabrın 24-də Brüsselə yola düşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 25-də keçiriləcək iclasda Əfqanıstanda təhlükəsizlik və siyasi vəziyyət, əldə olunan son nailiyyətlər və maraq doğuran digər mövzular ətrafında geniş müzakirələr aparılacaq. Səfər çərçivəsində Müdafiə nazirinin ikitərəfli görüşləri də nəzərdə tutulub.

# Ermənistan yeni "Doing Business" hesabatında altı pillə geriləndi




Ermənistan Dünya Bankının "Doing Business 2020" hesabatında altı pillə geriləyib. AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, bu geriləmə ölkədə sərmayə mühitinin və azad biznes üçün şəraitin pisləşməsinin nəticəsidir. Qeyd olunur ki, ötən il "Doing Business 2019" hesabatında 41-ci yeri tutan Ermənistan bu il reytinq cədvəlində 47-ci yerə düşüb. Belə ki, Dünya Bankının Yerevan ofisinin rəhbəri Silvi Boustro keçən il bu ölkənin hesabatda irəliləməsini əmlak alqı-satqısı prosedurunun sadələşdirilməsi, vergi sistemində dəyişikliklərlə izah etmişdi. Ermənistanın builki düşüşünün səbəbi isə hələ bu ofis tərəfindən açıqlanmayıb.

# Məşhur orqan ifaçısı Matthias Hanke Bakıya gəlir




Oktyabrın 31-də Vürtemberq Yevangelist Regional Kilsəsinin musiqi rəhbəri Matthias Hanke Bakıda çıxış edəcək. M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının nəzdində Kamera və Orqan Musiqi Zalında reallaşacaq orqan konserti Goethe-Zentrum Bakı və Yevangelist Lüteran Kilsəsinin təşkilatçılığı ilə reallaşacaq.

# Ötən ay 19,4 milyon nəfər metrodan istifadə edib

Cari ilin sentyabrında 19,4 milyon nəfər metrodan istifadə edib. Dövlət Statistika Komitəsindən bildirilib ki, avqustda bu rəqəm 15,9 milyon nəfər olub.

# Keçən ay hava nəqliyyatı ilə 7,5 min ton yük ixrac olunub



Cari ilin sentyabrında hava nəqliyyatı ilə 7509 ton yük ixrac edilib. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, keçən ay bu nəqliyyat növü ilə idxal olunan yüklərin həcmi isə 1199 ton olub.

# Azərbaycanda heç bir qüvvə xalq-iqtidar birliyinə zərər vura bilməz



***Müdrik rəhbərimiz, bənzərsiz dünyəvi siyasi xadim Heydər Əliyevin şah əsəri olan müstəqil, demokratik, hüquqi və dünyəvi Azərbaycan Respublikası günügündən yüksələn xətt boyunca inkişaf edir. Azərbaycan Ulu Öndərin siyasətinin, davamı olaraq, 2003-cü ildən daha da böyük tərəqqi yoluna qədəm qoyaraq iqtisadi və sosial inkişafa nail olmuşdur. Xalqımızın ümumi rəyi və dəstəyi ilə prezident seçilən İlham Əliyevin düşünülmüş, məqsədyönlü, uzaqgörən daxili və xarici siyasəti sayəsində ölkəmizdə tam şəkildə sabitlik, təhlükəsizlik bərqərar olmuşdur. Beynəlxalq aləmdə Azərbaycanın nüfuzu 200 illik müstəqillik tarixi olan ölkələrdən beynəlxalq aləmdə daha da artmışdır.***

Bu beynəlxalq nüfuzun nəticəsidir ki, hələ 2011-ci ildə BMT TŞ-nin qeyri-daimi üzvlüyünə seçkilərdə 193 ölkədən 155-i Azərbaycanı dəstəkləmişdir. Azərbaycan iki dəfə Təhlükəsizlik Şurasına sədrlik etmiş, dünyanın güc mərkəzləri ilə ABŞ, Fransa, Rusiya, Çin, Yaponiya, Böyük Britaniya və s. ölkələrlə birlikdə qlobal məsələlərin həllində, terrorizmə və separatizmə qarşı mübarizənin önündə gedib.

Bu gün də Azərbaycan beynəlxalq aləmdə müstəqil siyasət yeridərək, sabitlik, iqtisadi inkişaf, sosial tərəqqi baxımından nümunəvi ölkəyə çevrilmişdir. Dağlıq Qarabağ və ətraf rayonların erməni işğalından azad edilməsi istiqamətində uğurlu addımlar atılır.

Belə bir şəraitdə ermənipərəst xarici qüvvələr, həmişə olduğu kimi, sapı özümüzdən olan baltalardan məharətlə istifadə etməklə, ölkəmizdə sabitliyi pozmağa, Azərbaycanın beynəlxalq aləmdə olan nüfuzuna xələl gətirmək üçün Dağlıq Qarabağ münaqişəsini ermənilərin xeyrinə həll etmək üçün gah ayrı-ayrı ölkələrdən deputat qrupu, nümayəndələr göndərir, gah da bəzi beynəlxalq tədbirlərə dəvət edirlər.

Diqqəti bu məsələdən yayındırmaq, sabitliyi pozmaq, ölkədə aparılan islahatlara, idarəetmənin təkmilləşdirilməsinə zərbə vurmaq məqsədilə küçə müxalifətindən, anlaqsız, utopik düşüncə tərzinə malik olan, milli şüurdan, milli əxlaqdan uzaq olan antimilli düşmən qüvvələrdən istifadə etməyə son dövrlərdə daha da üstünlük verilib.

Bu yaramaz, əxlaqsız, çayxana, küçə siyasətçiləri, siyasi kəsicilər, gəmricilər anti"Milli Şura"nın antimilli sədri Cəmil Həsənlilər, xaos, anarxiya, vətəndaş müharibəsi dövrünün "milli qəhrəmanları", riyakar, avantürist AXC-Müsavat ikihakimiyyətliyinin nümayəndələri AXCP adlandırılan antikonstitusion anlaqsız xarici casuslar partiyasının sədri, Qrabağın işğalına zəmin yaratmış Əli Kərimlilər, İsa Qəmbərlər, Arif Hacılılar və başqaları xarici düşmən qüvvələrin və onlara dolayısı ilə dəstək verən bəzi daxili qüvvələrin maliyyə dəstəyi ilə sabitliyi pozmağa cəhd edirlər. Ancaq həmişə olduğu kimi, dövlət hakimiyyətinin yeganə mənbəyi olan Azərbaycan xalqının ümumi rəyi qarşısında yenə də məğlubiyyətə düçar oldular, siyasi dezinfeksiyaya, vaksinasiyaya məruz qaldılar.

Xalq-iqtidar, iqtidar-xalq birliyi, vəhdəti qarşısında məğlub oldular, yel kimi əsdilər, dəli-divanə kimi coşdular, bağırdılar, çığırdılar, quyunun dibindən onların səsinə səs verən olmadı. Bu cür küçə müxalifətini və çayxana siyasətçilərini müxalifət adlandırmaq olmaz. Bunlar müxalifət donu geyinib ölkəmizdə təxribatlar, qarşıdurmalar yaratmağa çalışan antimilli, düşmən dəyirmanına su tökməklə məşğul olan, Azərbaycanı 1992-1993-cü illərə qaytarmaq istəyən, zəif, düşük hakimiyyət formalaşdırmaqla, həmin illərdə ermənilərə söz verdikləri torpaqları verməyi qarşısına qoyan şəxslərdir - Əli Kərimlilərdi, İsalardı və s.

Əgər belə deyilsə, niyə mitinqlərini təyin edilmiş yerlərdə keçirmirlər?! Ona görə də şəhərin mərkəzi yerlərində, metroların qarşısında çığır-bağır, səs-küy salırlar ki, səsə-küyə beş-on adam toplaya bilsinlər. Ona görə ki, şəhərin mərkəzində bir səs-küy olanda, qəza və ya iki nəfər əlbəyaxa olanda, onların hərəkətlərinə tamaşa etmək üçün xeyli adam yığışır. Ona görə də təyin edilmiş yerlərə tərəfdaş toplaya bilməyəcəklərini, bir daha biabır olacaqlarını bildikləri üçün belə bir addım atırlar. Eyni zamanda, qarşılarına qoyduqları məqsədə nail olmaq üçün, yəni şəhərin mərkəzində qarışıqlıq salmaq, asayişi pozmaq, vətəndaşların hüquqlarını pozmaq və beləliklə də, dövlət və hakimiyyət, hüquq- mühafizə orqanlarının nüfuzuna xələl gətirmək və xarici ölkələrdə, bəzi beynəlxalq təşkilatlarda əks-fikirlər formalaşdırmaq məqsədi ilə bu addımı atırlar.

Azərbaycanda hakimiyyətin mənbəyini təşkil edən Azərbaycan xalqı artıq öz hakimiyyətini 1993-cü ilin 15 iyunundan möhkəm təməllər üzərində qurub. Bu xalq hakimiyyətini və xalqın ümumi rəyi və dəstəyi ilə seçilmiş və xalq-iqtidar, iqtidar-xalq birliyini, vəhdətini, fəlsəfəsini formalaşdırmış Prezident İlham Əliyev -xalq zirvəsinə heç bir qüvvə təsir göstərə bilməz.

AXCP, "Milli Şura", əslində isə, anarxiya, xaosa çağırış partiyası, antimilli şüursuz şəxslərin cəmləşdiyi "şura"nın Azərbaycan kimi ən demokratik, hüquqi dünyəvi dövlətdə, hakimiyyətin xalqa məxsus olduğu bir dövlətdə müxalifət donu geyinərək casusluqla və təxribatla məşğul olmalarına əsas vermir. Yəni AXCP antikonstitusion qondarma və uydurma bir qurum olmaqla, Əli Kərimlinin müxalifət pərdəsi arxasında təxribatla məşğul olmasını örtbasdır etməkdən ibarətdir. Həmin partiya nə Azərbaycanı, nə də onun xalqını təmsil etmir. Bir qrup təxribatçı, xaos, anarxiya banilərinin cəmlədiyi qurumu AXCP adlandırmaq, ən azından, cinayətdir. Ona görə ki, AR Konstitusiyasının 1-ci, 2-ci, 4-cü, 5-ci, 6-cı və 7-ci maddələrinin tələbləri ilə belə bir partiyanın mövcudluğu dövlətimizin siyasi sisteminə xələl gətirir və Ədliyyə Nüzirliyi belə bir mənəvi-psixoloji terror partiyasının qeydiyyatını ləğv etməlidir. Azərbaycanda hakimiyyətin bölgü prinsipinə əsasən, qanunverici hakimiyyət - Milli Məclis fəaliyyət göstərir və Milli Məclisdə xalq tərəfindən seçilmiş hakim partiyanın və milli maraqlarımıza xidmət edən digər partiyaların, müxalif partiyaların nümayəndələri, o cümlədən, Qüdrət Həsənquliyev, Asim Mollazadə, Fazil Qəzənfəroğlu, Fərəc Quliyev və digərləri təmsil olunublar. Bəs onda sual olunur, "Milli Şura"ya, əslində, antimilli, anti-Azərbaycan şurasına nə ehtiyac var?! "Milli Şura" adı ilə Cəmil Həsənli anlaqsız, utopik düşüncə tərzinə malik olan bir qrup təxribatçı partiyaları ətrafına cəmləşdirib, qanunsuz hakimiyyət formalaşdırıb. Belə bir təşkilat ləğv edilməlidir.

Onlar konkret cinayət əməli sübuta yetirilərək həbs edilən şəxsləri siyasi məhbus adlandırmışlar. Öz şəxsi maraqlarını milli maraqlarımızdan üstün tutaraq, vətəndaşlarda hakimiyyətə qarşı əks- fikirlər yaratmağa çalışan, alıb-aldatmaqla, vətəndaşların pulunu mənimsəməklə, dələduzluq, hədə-qorxu gəlmək, şantaj etmək yolu ilə iri biznes dairələrinin maliyyə imkanlarını müxalifətin maraqlarına yönəltməyə çalışan bəzi idarə və müəssisə rəhbərlərini ələ alaraq, onların da maliyyə imkanlarından istifadə etmişlər.

Azərbaycanda heç kəs Cənab İlham Əliyevin alternativi ola bilməz.

Xalq-İlham Əliyev zirvəsi əlçatmazdır!

Yel qayadan heç nə qopara bilməz!

***Dəmir QURBANLI***

## Məmməd Musayev: "Prezident İlham Əliyev sahibkarlığın inkişafını hər zaman diqqət mərkəzində saxlayır"

Ötən dövrdə müstəqil Azərbaycan böyük inkişaf yolu keçib və cari ilin 9 ayının uğurlu nəticələri bu faktı bir daha təsdiq edir. Oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında keçirilmiş iqtisadi müşavirədə dövlətimizin başçısı cari ilin 9 ayının sosial-iqtisadi göstəricilərini müsbət qiymətləndirib.



AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 24-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində keçirdiyi mətbuat konfransında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Konfederasiyasının prezidenti, "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının idarə heyətinin sədri Məmməd Musayev deyib.

M.Musayev bildirib ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən kompleks tədbirlər və köklü islahatlar nəticəsində bəhs edilən bu dövrdə ÜDM 2,5 faiz, qeyri-neft ÜDM-i 3,5 faiz artıb. ÜDM-də qeyri-neft sektorunun payı 60,7 faiz təşkil edib. Bütövlükdə, ÜDM-də özəl sektorun payı 85 faiz təşkil edir: "Azərbaycan Sahibkarlar Konfederasiyasında 6 mindən çox sahibkar, 61 assosiasiya birləşib. Müşavirədə dövlətimizin başçısının nitqində diqqətçəkən əsas məqamlardan biri də Azərbaycanda həyata keçirilən islahatların əhəmiyyəti ilə bağlı idi. Ölkədə aparılan islahatların yüksək qiymətləndirildiyini bildirən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanda həyata keçirilən uğurlu islahatlar beynəlxalq aparıcı maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Bu gün Azərbaycan dünyanın ən islahatçı ölkələri sırasında yer alır. Heç də təsadüfi deyil ki, "Doing Business" hesabatında Azərbaycan 20 ən islahatçı ölkə sırasında qeyd olunub. Lakin Azərbaycan bu uğurlarla kifayətlənmir. İslahatlar bundan sonra da ardıcıllıqla davam etdiriləcək. Dövlətimizin başçısı bununla bağlı qarşıya ciddi vəzifələr qoyub".

Azərbaycan sahibkarlarının dövlət qayğısı ilə əhatə olunduğunu deyən ASK-nın prezidenti göstərilən qayğıya görə ölkə rəhbərinə sahibkarlar adından minnətdarlıq edib. O deyib ki, ölkə başçısı hər zaman sahibkarlığın inkişafına mane olan məsələlərin aradan qaldırılmasını diqqətdə saxlayır, kiçik və orta sahibkarlığın inkişafına lazımi dəstək verir.

M.Musayev bildirib ki, İqtisadiyyat Nazirliyinin strukturunun təkmilləşdirilməsi sahibkarlar üçün əlverişlidir. Onun sözlərinə görə, ASK-nın əsas hədəflərindən biri də qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsidir.

## Joaquin Perez Ayestaran: Qoşulmama Hərəkatının Gənclər Sammiti çox önəmli təşəbbüsdür

Bakıda keçirilən Qoşulmama Hərəkatının Gənclər Sammiti çox önəmli təşəbbüsdür. Bu təşəbbüs nəinki Venesuela, həmçinin Qoşulmama Hərəkatına digər üzv ölkələr tərəfindən də yüksək qiymətləndirilir. İnanıram ki, bu tədbir həm də Azərbaycan Hökumətinin beynəlxalq aləmdə gənclərin rolunu inkişaf etdirmək istiqamətində gördüyü işin yüksək qiymətləndirilməsinin sübutudur.



Bu sözləri AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən Qoşulmama Hərəkatının Gənclər Sammitində iştirak edən Venesuelanın BMT-dəki daimi nümayəndəsi Joaquin Perez Ayestaran deyib. O qeyd edib ki, bu platforma təkcə siyasi problemlərin deyil, həm də dünya ölkələrinin üzləşdiyi sosial və iqtisadi problemlərin həlli istiqamətində müzakirələr aparmağa və onların həlli yollarını tapmağa kömək edir. Hər bir ölkədə cəmiyyət həyatında gənclərin rolu böyükdür. "İnanırıq ki, həyata keçirdiyi uğurlu xarici siyasət sayəsində Azərbaycan Qoşulmama Hərəkatının əsas məqsədlərinə nail olmaq istiqamətində, Hərəkatın fəaliyyətinin təkmilləşdirilməsi prosesində irəliləyişə nail olmaq üçün bütün səylərini səfərbər edəcək və bu platformaya yeni elementlərin gətirilməsində əhəmiyyətli rol oynayacaq", - deyə Venesuela nümayəndəsi əlavə edib.

# "Erməni yalanının beynəlxalq aləmdə ifşa olunmasında gənclərin rolu və məsuliyyəti"

*Bu mövzuda YAP Nəsimi rayon təşkilatında dəyirmi masa keçirilib*



**Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında "Erməni yalanının beynəlxalq aləmdə ifşa olunmasında gənclərin rolu və məsuliyyəti" mövzusunda dəyirmi masa keçirilib.**

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, Prezident İlham Əliyev Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar iclasının sessiyasındakı qətiyyətli çıxışı və "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı ilə Dağlıq Qarabağ münaqişəsinin həllində qətiyyətli mövqeyini bir daha nümayiş etdirdi. Rayontəşkilat sədri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və erməni saxtakarlığının beynəlxalq aləmdə ifşa olunmasında gəncləri fəal olmalarının vacibliyini qeyd edib.



Dəyirmi masada "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev çıxış edərək bildirib ki, Prezident İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışı ilə işğalçı Ermənistanda hökm sürən faşizm ideologiyasına söykənən terrorçuluğu bir daha ifşa etdi. O, gəncləri ermənilərin ifşa edilməsi istiqamətində addımlar atmağa çağırıb: "Ermənistan rəhbərliyi zaman-zaman saxta iddialarla çıxış edərək, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesində Ermənistan və Azərbaycanla yanaşı, Qarabağ ermənilərinin "Artsax" deyilən cinayətkar qurumunun iştirakını üçüncü tərəf kimi qoyur, danışıqlar formatına zərbə vurmaq məqsədilə müxtəlif hərəkətlər edir. Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması olaraq ermənilərin saxta iddialarına, onların münaqişə ilə bağlı təxribat xarakterli bəyanatlarına həmişə cavab verməliyik. Prezidentin söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" fikri, bizi bir daha əmin edir ki, tez bir zamanda öz torpaqlarımıza qayıdacağıq".

Tədbirin sonunda gənclərin sualları cavablandırılıb, mövzu ilə bağlı ideya və təklifləri dinlənilib.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Yasamalda Hüseyn Cavidin anadan olmasının 137 illiyinə həsr olunmuş tədbir keçirildi

***Dünən YAP Yasamal rayon təşkilatının, Yasamal rayon icra hakimiyyətinin və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə Hüseyn Cavid Parkında böyük dramaturq və şair, mütəfəkkir Hüseyn Cavidin anadan olmasının 137-ci ildönümünə həsr olunmuş tədbir keçirildi. Əvvəlcə tədbir iştirakçıları ədibin Hüseyn Cavid Parkında ucaldılan heykəlini ziyarət edərək, abidəsi önünə gül çələngləri qoyaraq, xatirəsini yad ediblər.***



Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Hüseyn Cavidin keçdiyi həyat və yaradıcılıq yoluna nəzər salaraq, böyük şairin Azərbaycan ədəbiyyatına töhfələr bəxş etdiyini bildirdi.

Tədbirdə çıxış edən Yasamal rayon icra hakimiyyəti başçısının müavini Təravət Muradova H.Cavidin keşməkeşli həyat yolu, XX əsr Azərbaycan dramaturgiyasının inkişafındakı əvəzsiz xidmətlərindən söz açdı və yaşadığımız Sovet dövründə, totalitarizmin dəhşətli dövründə H.Cavidin Sibir buzlaqlarına sürgün edildiyini söylədi. Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli böyük dramaturqun ədəbi irsinin hər zaman diqqətdə olduğunu vurğulayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə bir neçə dəfə əsərlərinin latın qrafikası ilə çap olunduğunu bildirdi.



Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov bildirdi ki, artıq neçə illərdir ki, Cavid Günü onun adını daşıyan bu parkda təşkil olunur. Azərbaycan ədəbiyyatında milli romantik şeirin, mənzum dram və faciə janrlarının əsasını qoyan dramaturqun tariximizin ən çətin dövründə yaşayıb - yaratdığını, keçən əsrin 30-cu illərinin repressiya burulğanına düşdüyünü bildirdi: "Ulu Öndərimiz Heydər Əliyevin təşəbbüsü və prinsipial mövqeyi nəticəsində, H.Cavidin cənazəsinin qalıqları vətənə qaytarıldı. H.Cavidin nəşinin Uzaq Sibirdən Azərbaycana gətirilməsi ictimai-siyasi mühitdə böyük hadisəyə çevrildi. H.Cavid təkcə yaşadığı dövrün deyil, sonrakı dövrlərin də böyük filosof-şairidir".

Tədbirdə H.Cavidin nəşinin Sibirdən vətənə gətirilməsində yaxından iştirak edən Həmid Cəfərov, filologiya elmləri doktoru Cəlal Qasımov, Hüseyn Cavidin Ev-Muzeyinin direktoru, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı və başqaları çıxış edərək, H.Cavidin nəsillərə örnək olacaq zəngin və təkrarsız yaradıcılığının. zaman keçdikcə, daha çox aktuallıq kəsb etdiyini bildirdilər.

Tədbir konsert proqramı ilə davam etdi. Əməkdar artist Nuriyyə Hüseynovanın, müğənni Almaxanım Əhmədlinin və başqalarının ifasında H.Cavidin sözlərinə bəstələnmiş mahnılar səsləndirildi. Qəndab Əhmədli isə. H.Cavid yaradıcılığından nümunə səsləndirdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Mənzil istismar idarələri də bələdiyyələrin nəzdində olacaq"

***"Bələdiyyə fəaliyyətini qurmaq üçün maliyyəsi olmalıdır". SİA-nın məlumatına görə, bunu bu gün jurnalistlərə açıqlamasında Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə bildirib.***



A. Rəhimzadə deyib ki, qanunvericiliyə əsasən bələdiyyələrin fiziki şəxslərdən əmlak, hüquqi şəxslərdən torpaq vergisi yığmaq hüququ var: "Ancaq çox az sayda insan mülkiyyətində olan mənzillə əlaqədar əmlak vergisi ödəyir. Bakıda yaşayan insanlar mənzil istismar idarələrinə lift və digər xidmətlər üçün pul verirlər. Ancaq bu, mənzil istismar idarələri tərəfindən yığılan puldur, bələdiyyələrə heç bir dəxli yoxdur. Hələlik mənzil istismar idarələri bələdiyyələrin nəzdində deyil. Bir müddətdən sonra mənzil istismar idarələri də bələdiyyələrin nəzdinə keçəcək. Bunun üçün qanunvericiliyə dəyişiklik olmalıdır, mənzil istismar idarələri bələdiyyələrin nəzdinə keçəcək. Hazırda bələdiyyələrin mənzil istismar idarələrini idarə etmək üçün tam imkanları yoxdur. Gərək bələdiyyələr təcrübə əldə etsinlər, əhali ilə bələdiyyələr arasında yüksək səviyyədə münasibətlər yaransın. Bundan sonra mənzil istismar idarələri də bələdiyyələrin nəzdinə keçəcək, bələdiyyələrə digər səlahiyyətlər də veriləcək".

***Nailə Məhərrəmova***

# Mələk Çakmak: "650 min ağacın əkilməsi Azərbaycanın karbon qazı tullantılarının 35 faizə qədər azaldılmasına dair öhdəliyinə töhfə verəcək"



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda bir gündə 650 min ağacın əkilməsi çox gözəl bir təşəbbüsdür. Bütün qurumlar və vətəndaşlar bu təşəbbüsə qoşulmalıdırlar. Biz də bir beynəlxalq qurum - BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı olaraq irəli sürülən bu xoş təşəbbüsü dəstəkləyir və bu kimi işlərin bir trend olaraq qəbul edilərək mütəmadi şəkildə həyata keçirilməsinə ümid bəsləyirik.***

Bunu AZƏRTAC-a müsahibəsində FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak deyib. "Bu təşəbbüsün əsas əhəmiyyəti ondan ibarətdir ki, hər kəs ağacların insan həyatındakı əvəzsiz rolunu bir daha anlayacaq, əkdiyi ağaclarla ölkənin ekoloji vəziyyətinin yaxşılaşmasına kiçik də olsa bir töhfə vermiş olacaq", - deyən M.Çakmak bildirib ki, ağac əkib meşə salmaq ekoloji tarazlığı qorumaq üçün çox vacib bir işdir.

"Həyata keçirilən bu kimi işlər həm Azərbaycanın təbiətinin daha da zənginləşməsinə, ekoloji vəziyyətin yaxşılaşmasına xidmət edir, həm də Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına köməklik göstərir, Azərbaycanın qəbul etdiyi Paris Sazişi üzrə 2030-cu ilə qədər hədəf kimi götürdüyü karbon qazı tullantılarının 35 faizə qədər azaldılmasına dair iddialı öhdəliyinə öz töhfəsini verir", - deyə FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri deyib. Azərbaycanda son illər yaşıllıqların artırılması və qorunmasına xüsusi həssaslıqla yanaşıldığını və genişmiqyaslı ağacəkmə aksiyalarının həyata keçirildiyini deyən M.Çakmak Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aqromeşə massivlərinin salınmasını, IDEA İctimai Birliyi tərəfindən yaşıllıqların artırılması və qorunmasına istiqamətlənmiş layihələri xüsusi qeyd edib.

# "Rəvan" Sığorta Şirkəti ictimai narazılıq yaradıb

***Bugünkü mövcud reallıqlar fonunda, diqqətçəkən başlıca məqam ondan ibarətdir ki, ölkə iqtisadiyyatında həyata keçirilən islahatlar sahibkarlıq fəaliyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycan Prezidenti İlham Əliyev tarixi çıxışlarının birində bildirib ki, sahibkarların fəaliyyətinə dövlət tərəfindən çox böyük dəstək, həmçinin, siyasi dəstək verilir: "Sahibkarlarla mənim, müntəzəm olaraq, ildə bir neçə dəfə görüşlərim keçirilir. Son 13-14 il ərzində, yüzlərlə sahibkarla görüş keçirilmişdir. Mən sahibkarlıq fəaliyyəti sahəsində bir çox müəssisələrin açılışında şəxsən iştirak etmişəm. Sahibkarlar yaxşı bilirlər ki, onların fəaliyyətinə dövlət tərəfindən çox böyük dəstək, həmçinin, siyasi dəstək verilir. Bu gün cəmiyyətdə sahibkarlara münasibət müsbətə doğru dəyişir və əlbəttə ki, sahibkarların sosial məsuliyyəti gündəlikdə duran məsələlərdən biridir".***

Bir sözlə, qısaca onu demək olar ki, Azərbaycan iqtisadiyyatı özünün inkişaf dinamikasına görə, dünya ölkələri arasında lider dövlərlərdəndir. Bu baxımdan, Azərbaycanın dünya ölkələri sırasında ən islahatçı ölkə kimi tanınır. Bunu bu günlər Dünya Bankının "Doing Business" proqramı çərçivəsində yadığı hesabatda da öz təsdiqini tapıb. Hesabatda Azərbaycanın 10 ən islahatçı ölkə kimi tanındığını və ölkəmizin 32 pillə irəliləyərək, hazırda 25-ci yerdə sahib olduğu qeyd edilir. Təbii ki, sahibkarlığa göstərilən dövlət dəstəyi məhsul istehsal edən müəssisələrin və yeni iş yerlərinin yaradılmasına gətirib çıxarır ki, bundan da bəhrələnən ölkə vətəndaşları olur.

"Rəvan" birəvanlıq edir

Söz yox ki, iqtisadi inkişaf bir çox sahələrin sığorta sektorunun da inkişafına təkan verir. "Sığorta haqqında" qanunun qəbulu, bu istiqamətdə dövlət tərəfindən müvafiq qərarların verilməsi sığorta bazarında şəffaflığın artırılması ilə yanaşı, insanların bu sahəyə inam və etibarının artmasına səbəb olur. Çünki hər bir ölkə vətəndaşı ona vurulmuş maddi ziyanın ödənilməsi ilə bağlı sığorta mexanizmindən yararlanmaq istəyir və buna da nail olur. Düzdür, elə sığorta şirkətləri var ki, müxtəlif qaranlıq vasitələrlə özlərini təbliğ etsələr də, araşdıranda və ya faktlara istinad edəndə, aydın olur ki, həmin şirkətlər sığorta sahəsində dələduzluq hallarına yol verirlər. Məhz bu kimi faktlar səbəbindən, son vaxtlar sığorta cinayətlərinin sayı artıb. Bu da, sığorta sektoruna inamı azaltmaqla yanaşı, beynəlxalq arenada ölkəmizin sığorta sahəsinə münasibətdə ziddiyətli fikirlər formalaşdırır. Sabirabad rayonu Pambıq zavodu qəsəbəsi, ev 4, mənzil 4-də yaşayan Əbülfəz Nəbiyev redaksiyamıza ünvanladığı şikayət məktubunda qeyd edir ki, "Rəvan Sığorta" ASC ilə 90 PU 935 dövlət qeydiyyat nişanlı "Nissan Sunny" minik avtomabilini "Kasko" sığorta etdirsə də, dələduzluğun qurbanına çevrilib: "Avtomobilimi "Paşa" Sığortada sığortalatdırmağı planlaşdırmışdım. Çünki "Paşa" sığorta cəmiyyətdə ədalətli mövqeyi və fəaliyyətilə tanınır. Ancaq "Nissan Sunny" avtomabilini aldığım "Çinar Lizinq" MMC buna imkan vermədi və "Rəvan Sığorta" ASC ilə sığorta müqaviləsinin imzalanmasını tələb etdi. Beləliklə, 20.11.2018- ci il də, aldığım "Nisan-Sunny" avromabilini NBS Banka 1159 manat ödəməklə, 3 il müddətinə "Kasko"da sığorta etdirdidim. Amma təəssüf...".

Şikayətçi təəssüfünü onunla əlaqələndirdi ki, 6 iyul 2019-cu ildə, məndən asılı olmayan səbəblərdən, Sabirabad rayonu ərazisində yol-nəqliyyat hadisəsi baş verdi: " "Rəvan Sığorta" ASC-nin qaranalıq işlərinin icraçılarından olduğu bundan sonra üzə çıxdı. "Kasko", sığortam olmasına baxmayaraq, şirkət üzərinə götürdüyü öhdəlikləri və müqavilənin şərtlərini yerinə yetirməkdən imtina etdi. Dəfələrlə şirkətin rəhbərliyinə şikayət etsəm də, nəticəsi olmayıb. Hətta Maliyyə Bazarlarına Nəzarət Palatasına da "Rəvan Sığorta"nın hüquqa zidd əməllərindən şikayət etsəm də, qanuni haqqımın tanınmasına nail ola bilməmişəm".

Ə.Nəbiyev şikayət məktubunda, o fikri də vurğulayır ki, "Rəvan Sığorta" ASC-nin hesabına ödədiyi 1159 manat, sonradan vergidən yayınmaq üçün hesabatdan silinib: "Bu azmış kimi, "Rəvan Sığorta" ASC arasında bağlanan müqavilə 18 maddədən ibarət olsa da, mənə yalnız 12 maddəni əks etdirən, müqavilə sənədləri verilib. Bütün bunlar, dələduzluqdur və cinayət məsuliyyəti yaradır. Necə ola bilər ki, "Kasko" sığorta ola, amma yol-nəqliyyat hadisəsi baş verərkən, kompensasiya ödənilməyə?"

Terror və zəlzələdən zərər görən avtomabil sahibinə konpensasiya verilməsi nəzərdə tutulur, amma...

Doğrudan da, şikayətçinin sual etdiyi kimi, bu, necə ola bilər? Suala cavab tapmaq çətin olsa da, bu gün sığorta bazarında hökm sürən hərc-mərcilik, dələduzluq, maliyyə maxinasiyaları Ə.Nəbiyevin sualına cavab verməyə imkan yaradır. Deməli, "Rəvan Sığorta" ASC saytında (http://revansigorta.az/default/kasko-sigortasi) qeyd etdiyi kimi, heç də, şəffaf və ədalətli, peşəkar və inamlı sığorta şirkəti deyil. Necə ola bilər ki, oğurluq və oğurluğa cəhd, yanğın, ildırım vurması və partlayış, vurma, vurulma, aşma və düşmə (YNH və hər hansı bir predmetlə toqquşma), tətil, iğtişaş, xalq hərəkatları, terror və üçüncü şəxslərin qəsd hərəkətləri, zəlzələ və vulkan püskürməsi, sel, daşqın və su basması, səs, telefon, görüntü cihazları və digər aksessuarlara dəyən zərərlər, Azərbaycan Respublikası sərhədlərindən kənarda meydana gələn zərərlər zamanı avtomabil sahiblərinə kompensasiya ödənilməsi nəzrdə tutulur, ancaq Ə.Nəbiyevin "Nissan Sunny" avtomabilinə dəyən zərərə görə, konpensasiya ödənilməsi mümükünsüz hesab olunur? Çox müəmmalı məsələdir. Bunun cavabını ancaq sığorta şirkətinin rəhbərliyinin bildiyi tapmaca da hesab etmək olar. Amma Azərbaycan Respublikasının qanunvericilik sistemində sığorta dələduzluğuna görə, birbaşa cəza nəzərdə tutulur. Cinayət Məcəlləsinin "İqtisadi sahədə cinayətlər" bölməsinin 178.1-ci maddəsinə əsasən, dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə - yüz manatdan yeddi yüz manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

AR CM-nin 178-ci maddəsinin tətbiqi üzrə "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 31 yanvar 2002-ci tarixli qərarında göstərilmişdir: məhkəmələr nəzərə almalıdırlar ki, şəxsin aldatma və ya etibardan sui-istifadə etməklə pensiya, müavinət və başqa ödənişlər şəklində dövlət vəsaitlərini alması dələduzluq yolu ilə əmlakın ələ keçirilməsi kimi qiymətləndirilməlidir.

Ə.Nəbiyevin şikayəti ilə bağlı "Rəvan Sığorta" ASC ilə əlaqə saxlayıb, münasibət öyrənməyə çalışdıq. Sığorta şirkətinin (012) 448-33-11 nömrəsinə etdiyimiz zənglərə Zahir adlı əməkdaş cavab verib, bizi dinləsə də, rəhbərliyin yerində olmadığını, suallarımızı onlara çatdıracağı ( 6 gün) vəddlərini versə də, şikayətçinin də, yazdığı kimi, təəssüflər...

**İ.ƏLİYEV**

***P.S. Mövzu ilə bağlı araşdırmalarımız davam edir.***

## "İdarətmə sisteminin yenidən qurulmasında kadr islahatları vacibdir"

"Azərbaycanda kadr islahatları, eləcə də struktur dəyişikliklərinin aparılması istiqamətində addımlar çox mühümdür. Bacarıqlı, qabiliyyətli, Vətənini sevən gənclərin yeni vəzifələrə cəlb edilməsi, dövlət idarəçilik sisteminin yenidən qurulması baxımından vacibdir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Tahir Rzayev deyib.



Deputat bildirib ki, kadr islahatların aparılması həm də vətəndaşların problemlərinin həlli istiqamətində mühüm əhəmiyyət kəsb edir: "Bilirsiniz ki, Mikayıl Cabbarov vergilər naziri vəzifəsinə təyin edilməmişdən əvvəl bu sahə ilə bağlı bir sıra narazılıqlar var idi. Hətta həmin sahədə şəffaflığın yaradılacağına şübhə ilə yanaşanlar da var idi. Amma Mikayıl Cabbarov həmin vəzifəyə təyin edildikdən sonra az mdddət ərzində həm kadrların dəyişdirilməsi, həm struktur islahatlarının aparılması, həm də öz işgüzar və bacarığı ilə göstərdi ki, ən çətin nazirlikdə neqativ halları aradan qaldırmaq mümkündür. 9 ayda Vergilər Nazirliyi eləcə də Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə 700 milyon vəsait daxil olub. Bu, çox böyük rəqəmdir".

Ölkə başçısının həyata keçirdiyi islahatların müsbət nəticələr verdiyini deyən T. Rzayev söyləyib ki, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi bu addımlar bundan sonra da davam etdiriləcək: " Prezident İlham Əliyev 2018-ci ildə keçirilən seçkilərdən sonra kadr islahatlarının anonsunu vermişdi. Hazırda həyata keçirilən işlər məhz bu anonsun əməli göstəricisidir". Deputat qeyd edib ki, yaşından asılı olmayaraq qabiliyyətli kadrlar irəli çəkilməlidir: " Vəzifəsindən asılı olamayaraq hər kəs də bir vətəndaş olaraq Azərbaycana xidmət etməlidir".

## "Aparılan islahatlar ölkəmizin gələcəyini təmin etmək üçün əhəmiyyətlidir"

"Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar cəmiyyət tərəfindən də yüksək qiymətləndirilir. İslahatlarla bağlı atılan addımlar birdən-birə baş verməyib, ölkə başçısının milli, mütərrəqi siyasətinin tərkib hissəsidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli QHT Forumunun (MQF) rəhbəri Rauf Zeyni deyib. Prezident İlham Əliyevin xüsusilə də son müşavirələrdə çıxışlarını xatırladan MQF rəhbəri bildirib ki, dövlət başçısı ötən gün iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edən zaman bir daha təkrar etdi ki, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik: "Bu baxımdan atılan addımları dövrün tələblərinə uyğun olaraq idarəetmə sistemində yenilik kimi qiymətləndirməliyik. Aparılan islahatları mütərrəqi və mühüm hesab edirəm".

R. Zeyni söyləyib ki, Azərbaycanda bütün sahələrdə aparılan islahatlar ölkəmizin gələcəyini təmin etmək üçün vacib və əhəmiyyətlidir: " Hesab edirəm ki, aparılan islahatlarla yanaşı biz düşüncəmizi də dəyişməliyik. Kürsü psixologiyasından imtina etməliyik. Axı Vətənə xidmət etmək üçün məmur olmaq və ya vəzifədə çalışmaq mütləq deyil. Vəzifəsindən, işindən asılı olmayaraq hər kəs Vətənə xidmət edə bilər. Dövlət başçısı bütün çıxışlarında qeyd edir ki, məmurlar xalqın xidmətçisidir. Amma təəssüf ki, bəziləri bu xəbərdarlığa məhəl qoymadıqda cəmiyyətdə narazılığa səbəb ola bilir. Ölkə başçısının həyata keçirdiyi islahatların məqsədlərindən biri də məhz bu narazılıqların qarşısını almaqdır".

MQF rəhbəri vurğulayıb ki, ictimai nəzarət gücləndirilməlidir: " Prezident İlham Əliyev oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə bir daha qeyd etdi ki, vətəndaş cəmiyyəti tərəfindən nəzarət güclənməlidir. Təbii ki, bura media, QHT-lər, bələdiyyələr, həmkarlar, eləcə də vətəndaşlar daxildir. Vətəndaşlar qarşılaşdıqları çətinlikləri dərhal yubatmadan idarəetmə sisteminin daha da şəffaflaşmasına yardım etməlidirlər".

***Nailə Məhərrəmova***

## "Nar" "Canlı kitab" sosial layihəsinə başlayıb

Sosial əhəmiyyət daşıyan layihələrdə fiziki məhdudiyyətli şəxslərə hər zaman dəstək göstərən "Nar" "Radio Antenn 101 FM"lə birgə "Canlı kitab" layihəsinə başlayıb. Layihə çərçivəsində dünya və Azərbaycan ədəbiyyatının seçmə nümunələri tanınmış aktyorlar, qiraət ustaları tərəfindən səsləndirilərək xüsusi elektron daşıyıcılara yazılacaq. Eyni zamanda, bu əsərlər "Radio Antenn 101 FM"in canlı efirində səsləndirilir. Layihənin əsas məqsədi Azərbaycan və dünya ədəbiyyatının ən məşhur simalarının həyatı, əsərləri haqqında maraqlı məlumatlar, həmçinin əsərlərindən seçmələr verməklə bədii ədəbiyyatı hər kəs üçün əlçatan etməkdir.

Bu layihənin dəstəklənməsinin əsas səbəblərindən biri də görmə məhdudiyyətli insanların mütaliəsi üçün Azərbaycan dilində audio kontentin məhdud olmasıdır. Layihə başa çatdıqdan sonra bütün səsyazılarının flaşkardlar vasitəsilə kitab oxumaqda çətinlik çəkən şəxslərə paylanması nəzərdə tutulur. Bununla da, görmə məhdudiyyətli insanlar üçün audio kitabxananın əsası qoyulmuş olacaq. Qeyd edək ki, proqramı həftəiçi beş gün saat 10:00-dan 12:00-dək "Radio Antenn 101 FM"in yayımında dinləyə bilərsiniz.

# Haray-şivənçilikləri elə buraya qədərmiş...

*AXCP-"Milli Şura" cütlüyü adlanan qurumlar və onların "liderlərindən" fərqli olaraq, Azərbaycan cəmiyyəti kifayət qədər yetkindir*

***Dağıdıcı müxalifətin sosial bazasının tükənməsi reallığı düşərgənin keçirməyə cəhd etdiyi icazəsiz aksiyasında bir daha təsdiqini tapdı. Hətta şəhərin mərkəzində vətəndaşların sıx olduğu ərazilərdə oynanılan şou-tamaşa radikalların istədikləri nəticəni vermədi. Nə səsləndirdikləri şüarları, nə də "lider" adlandırılan ünsür - Ə.Kərimlinin öz ətrafında süni ajiotaj yaratmağa can atması vəziyyəti onların xeyrinə deyil, bilavasitə ziyanlarına işləyən fakta çevrildi. Dağıdıcıların xalqdan dəstək almaması amili, əsasən, seçkilərə qədər gedib-çıxır və bu da dəfələrlə təsdiqini tapmış reallığın tərkib hissəsidir. Ona görə də, sağlam siyasi mübarizə üsulundan yararlanmağı bacarmayanlar sonda təxribata əl atır, ictimai asayişi pozacaq hərəkətlərə yol verir, yaxud sosial şəbəkələrdə əsassız ittihamlar səsləndirir, bu yolla gündəmdə qalmağa çalışırlar.***

## Əli Kərimli, əslində, özü-özünü xalqdan təcrid etmiş lazımsız ünsürdür

Bir neçə gündür ki, qanunsuz aksiyanın AXCP sədri Ə.Kərimli və müəyyən xarici dairələr tərəfindən idarə olunduğunu əks etdirən faktlar siyasi müzakirə mövzusudur və demək olar ki, hər gün onlar haqqında növbəti ifşalar meydana çıxır. Bu isə, belə qənaətə gəlməyə zəmin yaradır ki, hər zaman "xalq" "millət" deyə bağıran Ə.Kərimli, əslində, özü-özünü xalqdan təcrid etmiş lazımsız ünsürdür. Daha dəqiq desək, o, sadəcə, xalqın adından dəm vuraraq, reallıqda dövlətçilik maraqlarına qarşı çıxır.

O cümlədən, radikal müxalifətin cəmiyyətə öz varlığını göstərmək, sabitliyi pozmaq, polislə qarşıdurma yaratmaq, hakimiyyətə qarşı yeni ittiham hədəfləri əldə etmək niyyətindən irəli gəldiyi oktyabrın 19-da gün kimi aydın olub. Elə həmin gün hüquq-mühafizə orqanları qeyri-qanuni aksiyanın qarşısını aldı və dağıdıcı qruplara şəhərin mərkəzində siyasi spekulyasiya və şou meydanına çevirməyə imkan vermədi.



Həmçinin, o da bəllidir ki, bu tipli aksiyaların keçirilməsi ilə bağlı cəmiyyətin sosial sifarişi yoxdur. AXCP-"Milli Şura" cütlüyü adlanan qurumlar və onların "liderlərindən" fərqli olaraq, Azərbaycan cəmiyyəti kifayət qədər yetkindir. Bu baxımdan, sağlam düşüncəli insanlarımız, bütövlükdə isə, Azərbaycan xalqı milli maraqlarla izah edilə bilməyən və inkişaf üçün perspektivlər vəd etməyən heç bir sosial-siyasi aksiyanı dəstəkləmir.

Xalq gördü ki, marginal radikal qruplar, əslində, bu aksiya vasitəsilə polislə süni qarşıdurma yaratmaq, hakimiyyətə qarşı yeni ittiham hədəfləri əldə etmək niyyəti güdürdülər. Ancaq hüquq-mühafizə orqanları onların qarşısını peşəkar səviyyədə aldı və "28 May" metrostansiyası ərazisini, həmçinin, onun ətrafını siyasi spekulyasiya meydanına çevirməsinə imkan vermədi. Artıq Əli Kərimli və yan-yörəsi anlamağa məhkumdur, ki, bu gün Azərbaycan cəmiyyəti özünün inkişaf dövrünü yaşayır və süni gündəm yaratmaqla, onun maraqlarını manipulyasiya etmək mümkün deyil!

## Şər-böhtançılıqla, pozğunçuluğun ömrü, hətta 40 gün deyil, 4 gün də deyil, elə 4 saat çəkdi

Yeri gəlmişkən daha bir amili də qeyd edək ki, həm aksiyadan sonra radikallar tərəfindən sosial şəbəkələrdə başladılan böyük kampaniya, polisin ictimai asayişi pozmamaq çağırışlarına məhəl qoymamaq, icazəsiz yürüşü davam etdirmək barədə çağırışlar AXCP sədrinin və "Milli Şura"nın "başbilənləri"nin əsassız mülahizələri bu qanunsuz aksiyanın əvvəlcədən qarşıdurmaya getmək məqsədilə düşünüldüyünü bir daha təsdiqlədi. Ona görə də, hüquq-mühafizə orqanları bu aksiyanın qarşısını zamanında aldı. Bu baxımdan da, əminliklə qənaətə gəlmək olar ki, Azərbaycan polisi öz vəzifəsini icra edərkən, qanunun tələblərinə əməl edib, aksiya iştirakçılarına qarşı hər hansı zorakılıq halı törədilməyib.

Bir məqamı da vurğulamaq yerinə düşər ki, dünyanın hər bir ölkəsində qanunsuz aksiyaların qarşısı alınır. Təəssüf ki, dağıdıcı ünsürlər, məhz Qərbdə etirazçılara qarşı tətbiq edilən polis qəddarlığını da Azərbaycan polisinin üzərinə atmağa çalışdı, amma alınmadı. Necə deyərlər, şər-böhtançılıqla pozğunçuluğun ömrü, hətta 40 gün deyil, 4 gün də deyil, elə 4 saat çəkdi. Daha dəqiq desək, qarşı tərəfin haray-şivənçilikləri elə buraya qədərmiş...

***Rövşən RƏSULOV***



# HAKİMİYYƏTİN İNQİLABI

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi kadr islahatları hələ bu ilin əvvəlindən yeni vüsət alan inqilabi islahatların məntiqi davamıdır. Bəli, bu, hakimiyyətin inqilabıdır və söz yox ki, bu inqilab, bilavasitə ölkəmizin, xalqımızın, gələcəyimizin daha möhkəm təməllərə söykənəcəyi gerçəkliyini, fakt olaraq ortaya qoydu. Ölkə rəhbərinin, xüsusilə, gəncləşdirmə siyasətinin vacibliyini vurğulaması, həmin istiqamətdə əməli işlər həyata keçirməsi, qərarlar qəbul etməsi, eləcə də, nazirlik strukturları qarşısında kifayət qədər əsaslı şərtlər qoyması həyata keçirilən islahatların bundan sonra da davamlı olacağı xəbərini verməkdədir.***

## Azərbaycan gəncinə edilən çağırış!

Digər tərəfdən, dövlət başçısının, sözün əsl mənasında, inqilabi addımlar atması, bu gün özlərini "xalqın sözçüsü" kimi zorla ictimai rəyə sırıyan, mövcud ictimai-siyasi, sosial-iqtisadi və s. istiqamətlərdə həyata keçirilən nəhəng uğurlara sərgilədikləri sifarişli siyasi şouları vasitəsi ilə kölgə salmağa cəhdlər göstərən uğursuz ünsürləri çıxılmaz vəziyyətə salıb. Çünki reallıq həm də budur ki, Azərbaycan xalqı bu siyasəti, birmənalı olaraq dəstəkləyir və verilən hər bir qərarın qısa zamanda münbit bəhrələr verəcəyinə inanır.

Lakin daha bir gerçəklik budur ki, Prezident İlham Əliyevin kadr islahatlarında apardığı gəncləşdirmə siyasəti, həm də birbaşa Azərbaycan gəncinə edilən çağırışdır - gənclərimiz ölkənin gələcək müqəddəratının daha təməlli əsaslara dayanması üçün həmin çağırışdan maksimum yararlanmalı, təhsilində, ictimai fəaliyyətində dövlətçilik və xalqçılıq prinsiplərini öndə tutmalıdır. Məhz belə olan halda, hər bir gənc öz potensialını həmin istiqamətə yönləndirib, daha uğurlu nəticələr hasil edə bilər.

Bu baxımdan, Cənab Prezidentin dediyi fikirləri bir daha xatırlatmaq yerinə düşərdi. SİTAT: "Gənclər elə yetişməlidir ki, gələcəkdə onlar ölkəmizi layiqincə idarə edə bilsinlər. Gənclər milli ruhda tərbiyə olunmalıdır... Biz elə gənclər yetişdirməliyik ki, onlar Vətənə, xalqa bağlı olsunlar və müstəqilliyi hər şeydən üstün tutsunlar. Ona görə də, gənc kadrların qabağa çəkilmələri onlara imkan verir ki, həm təcrübə toplasınlar, həm də artıq yaşlı kadrlar öz məsləhətlərini verməklə, onları düzgün yola istiqamətləndirirlər.

## Nümunə modeli və qələbə etalonu

O da sirr deyil ki, Prezident İlham Əliyev dövlətin müvafiq strukturlarının rəhbərləri ilə görüşlərində bir əhəmiyyətli məqamı hər dəfə xatırladır və vurğulayır ki, kimlərsə həyata keçirilən islahatlara biganə və etinasız yanaşırsa, həmin şəxslər barədə ölçülər götürülməli, ölkə başçısı şəxsən (!-R.N.) məlumatlandırılmalıdır. İstər sahibkarlığın inkişafında, istərsə də digər sahələrdə dövlətin tətbiq etdiyi qətiyyətli islahatlar siyasətinə, şəxsi maraqlarına görə kölgə salmağa çalışanlar, dövlətə, xalqa sədaqət andı içərək, sonradan xilaf çıxanlar, qəsdən xalqı hakimiyyətdən narazı salan insanlar dərhal öz layiqli cəzalarını almalıdırlar!

Ona görə də, bu gün hər kəs - ən sadə vətəndaşdan tutmuş, yüksək vəzifəli dövlət məmurlarına qədər bütün insanlar Prezident İlham Əliyevin həyata keçirdiyi inqilabi islahatlara dayaq durmalı, onun davamlılığı üçün ardıcıl çalışmalı və dönməz iradə nümayiş etdirməlidirlər. Beləliklə, biz bütün bunlarla yanaşı, həm də belə qənaətə gələ bilərik ki, hakimiyyətin gerçəkləşdirdiyi inqilab, həm də beynəlxalq aləmə göstərilən siyasi uğur nümunəsidir və bu nümunə, yalnız Azərbaycanın dünyaya sərgilədiyi siyasi modeli deyil, həm də bir qələbə etalonudur!

# Hərbçilərlə Paşinyan hakimiyyəti arasında narazılıqlar yaranıb



Nikol Paşinyan qoy sərhəddə xidmət etməyə özü ilə birgə addımlayanları göndərsin. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Qraparak" qəzeti yazır. Qəzet yazır ki, aprel müharibəsinin istintaq komissiyasına hərbçilərin çağırılması və onların dindirilməsi, hərbçilər, o cümlədən Dağlıq Qarabağda cəbhədə olan zabitlər arasında narazılıqlara və fikir ayrılıqlarına səbəb olub. "Əgər bu hakimiyyət, şəxsən Nikol Paşinyan hər bir zabitdən şübhələnirsə, onda niyə sərhədi bizə həvalə edib? Bizim üçün bu yanaşma təhqiramizdir. Hüquqşünaslarla məsləhətləşəcəyik və istintaq komissiyasına mütləq gəlməli olduğumuz təqdirdə "raport" yazacağıq və çıxıb gedəcəyik. Qoy Nikol özüylə birgə addımlayanları bura gətirsin. İndi hamımızla əlaqə qururlar, bizi deməyə məcbur edirlər deyək ki, bəli, Xaçaturov gec əmr verib, Seyran Ohanyan səhv işlər görüb. Bizdən bir şey "çəkmək" istəyirlər ki, səhv bir şey söylənilsin və əllərində "fakt" olsun. Sərhəddə dayanan bir zabitə bu necə münasibətdir?", deyə hərbçilər narazılıqlarını bildiriblər.

***İnam Hacıyev***

## Narkotik vasitələrin satışı ilə məşğul olan keçmiş məhkum yaxalanıb



Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti uğurlu əməliyyat keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, A.Qarayevə və Z.Zeynallıya narkotik vasitə satmaqda şübhəli bilinən Lökbatan qəsəbə sakini, əvvəllər məhkum olunmuş R.İbrahimov Qaradağ Rayon Polis İdarəsinin 10-cu polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Ətrafında aparılmış tədbirlərlə onun evindən 642 qrama yaxın marixuana, 296 qrama yaxın tiryək, 684 ədəd metodon və 1 ədəd avtomat patronu aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.

## Daha iki PKK terrorçusu İraqda məhv edilib

Türkiyə Silahlı Qüvvələrinin və Milli Təhlükəsizlik Təşkilatının (MİT) İraqın şimalında keçirdiyi antiterror əməliyyatı zamanı zərərsizləşdirilən terrorçulardan daha ikisinin axtarışda olduğu müəyyən edilib. AZƏRTAC xəbər verir ki, təhlükəli PKK terrorçularından olan "Gu?lc?iya" ləqəbli Servet Aydın və "Tekos?in Batman" ləqəbli So?yləməz Yaşar İraqın şimalındakı Qara bölgəsində zərərsizləşdirilib. Onların hər ikisi terror düşərgələrinə endirilən aviazərbələrlə məhv edilib. Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən axtarılan həmin terrorçuların tapılması üçün böyük məbləğdə mükafat nəzərdə tutulurdu.

# Arif Hacılı nəyə ümid edir?

*Və ya yenidən "birləşmək" çağırışları növbəti parçalanmanın anonsudur*

***Müsavat partiyasının başqanı Arif Hacılının siyasi müxalifətdə heç bir uğurlara imza ata bilməyən şəxslərin - Əli İnsanovun, Cəmil Həsənlinin, İsa Qəmbərin, Əli Kərimlinin, İlqar Məmmədovun, Pənah Hüseynin, Mehman Əliyevin, Hikmət Hacızadənin və eləcə də, özünün adını hallandırıb, "müxalifətin birliyi" ətrafında utopik xəyallara dalaraq, çağırışlar etməsi ilk başdan müxalifət düşərgəsində növbəti parçalanmanın anonsunu verir. Adları çəkilən bu şəxslərin hər birinin digərləri ilə münasibətlərində kifayət qədər düşmənçilik mövqeləri mövcuddur və həmin mövqelər sözdə "demokratik düşərgənin" siyasi iflasını çoxdan belə reallaşdırıb.***



### Müsavat başqanına sifariş verilib

Daha dəqiq desək, A.Hacılının belə bir "plan" ətrafında var-gəl etməsi, həmin "planın" onun şəxsi ideyasının olub-olmaması məsələsini də böyük sual altında qoyur. Məsələn, düşünmək olar ki, A.Hacılıya müəyyən dairələrdən sifariş verilib ki, adları çəkilən şəxsləri bir araya gətirsin və "müxalifətin birliyi" mövzusunu ortaya atsın, həmin "birlik" yaradıldıqdan sonra ona bu işinin müqabilində maddi vəsaitlər ayrılsın. Yaxud daha bir mümkün ehtimal budur ki, A.Hacılı həmin "birlikdə" yalnız Ə.İnsanovu, İ.Qəmbəri, P.Hüseyni, M.Əliyevi görmək istəyindədir, digərlərinin - Ə.Kərimlinin, C.Həsənlinin, H.Hacızadənin, İ.Məmmədovun adları isə, sadəcə, "demokratik görüntü" yaratmaq üçün qeyd olunub.

Misal üçün, əgər bir vaxtlar Müsavatda başqan müavinliyi etmiş H.Hacızadə hələ 2014-cü ilin qurultayında A.Hacılının başqan seçilməsinə qarşı etiraz etmişdisə, o bu gün də həmin fikirdə qalır. Ümumiyyətlə, həm eks-başqan İ.Qəmbərə, həm də hazırkı başqan A.Hacılıya tərəf heç vaxt müsbət addım atmaz.

Yaxud A.Hacılı Müsavatı "Milli Şura"ya yenidən üzv etməyincəyə qədər, nə Ə.Kərimli, nə də C.Həsənli onun bu "ideyasına" dəstək göstərməz. Hətta göstərsələr belə, bu, heç bir effekt verməyəcək. O cümlədən, nəzərə alsaq ki, AXCP-Müsavat "birlikləri," ümumiyyətlə, baş tutmayıb, onda Hacılının təklifinin rədd ediləcəyini də bəri başdan proqnozlaşdırmaq mümkündür.

İ.Məmmədova gəlincə isə, "REAL" partiyasının sədrinin, bütövlükdə ənənəvi müxalifət partiyaları ilə əməkdaşlığa meyilli olmaması faktı mövcuddur. Xatırlaya bilərik ki, o, dəfələrlə "Milli Şura"nın, ya da Müsavatın müxtəlif tədbirlərinə dəvət alsa da, həmin dəvətləri qəbul etməyib və heç bir birliklərdə və koalisiyalarda iştirak etməyəcəyini bəyan edib.

Bütün bunlar isə, həm də belə nəticə hasil edir ki, A.Hacılı əsas hədəf kimi Ə.İnsanovu, P.Hüseyni, İ.Qəmbəri və M.Əliyevi götürməklə, əslində, ənənəvi düşərgədə söz sahibi olmağa cəhd edir. Daha dəqiq desək, Ə.İnsanovun adının hallanması onun həbsdən çıxması ilə bağlıdır və A.Hacılı bu versiyadan maksimum şəkildə yararlanmağa çalışır. İ.Qəmbər barədə isə, hər şey məlumdur və o, A.Hacılının "ideyasının" aparıcı fiquru kimi təqdim oluna bilər. P.Hüseyn, davamlı olaraq, Müsavatla əməkdaşlıq etdiyinə görə, bu sıralamada yer alıb. M.Əliyev isə, A.Hacılıya müxalifətyönlü mediadan yararlanmağa hesablanıb.

### Siyahıda adları hallanmayan köhnə müxalifətçilər Arif Hacılıya qarşı əks-təbliğat aparacaqlar

Ancaq ortada digər məsələ də var. Belə ki, Mirmahmud Mirəlioğlunun, İqbal Ağazadənin, Sülhəddin Əkbərin və s. köhnə müxalifətçilərin həmin siyahıda yer almaması, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, A.Hacılıya bu sifarişi verənlər həmin adamların adlarını orada görmək istəmirlər. Həmin adamlar isə, adlarının sözügedən siyahıda yer almadığına görə, əlbəttə ki, Hacılıya qarşı əks-təbliğat aparacaqlar.

Fakt budur ki, A.Hacılının "təklifi", ya da ona verilmiş sifarişin reallaşması qətiyyən mümkün görünməməklə yanaşı, həm də onun "siyasi resursların toparlanması" ətrafındakı manipulyasiyası ucuz ritorikadan başqa heç nə deyil. Bir sözlə, son 26 ildə on dəfələrlə birləşib-parçalanan ənənəvi düşərgənin taleyi çoxdan həll olunub və siyasi iflası göz önündədir. Hətta bu cür də proqnoz etmək olar ki, sözügedən çağırış növbəti parçalanmanın anonsudur.

***Rövşən RƏSULOV***

---



## Abırları olsaydı...

**RƏFİQƏ**

***Deyəcəksiniz ki, hamı bilir müxalifət artıq ölüdür və bundan sonra da düzəlməzlər. Doğru deyirsiniz, amma bunu anlaya bilirlərmi? Bax, elə bələ da budur ki, 25 illik zaman müddətində düzəlməyən müxalifətin bundan sonra düzəlməsi, ümumiyyətlə, inandırıcı görünmür.***

Bəs belə olan halda, siyasətdə qalmağa dəyərmi? Görünür, Tanrının bizə bəxş etdiyi o hissiyyatın nə olduğunu hələ bu günə kimi anlamayıblar. Anlasaydılar, Müsavatla AXCP-nin rəhbərliyi başda olmaqla, düşərgədəki naftalin iyi verən "liderlər" siyasətdə qürub çağının çatdığını qəbul edərdilər.

Amma fakt budur ki, "liderlər" indiyə kimi həyasızlıq nümayiş etdirməklə, guya xalqın "dərdinə şərik" olduqlarını nümayiş etdirirlər. Bu qədər həyasızlıq olar? Hansı xalqdan danışırlar, bax, bu, müəmmalı qalır. Axı bildiyimiz qədər, xalq onları 2003-cü ildən dəstəkləmir. Deməli, necə xalq bunlardan imtina edibsə, özləri də özlərini xalqdan təcrid ediblər. Onda, bunlar nəyi gözləyirlər? Niyə siyasətin bunlarlıq olmadığını kişi kimi qəbul edib, siyasi arenanı üzüsulu olaraq tərk etməyə cürətləri çatmır? Sözsüz ki, sualın cavabı çox bəsitdir. Ona görə ki, heç vaxt xalqı düşünməyiblər, əksinə, xalqdan öz şəxsi mənfəətləri üçün istifadə edərək, qrantlar, pul-paralar dalınca qaçıblar. Bu qaçışla da "mühacir biznesi" qururlar, vəsiqə satırlar və s. Amma unudurlar ki, bunun da bir sonu var. Bu sona qürub deyirlər. Az qalıb, artıq sizlər qürub çağındasınız...

Deyirsiniz ki, ölkədə aparılan sosial və kadr islahatlarının aparılmasından istifadə etməsinlər? Artıq indidən satqın Əli Kərimli, ipli kukla Cəmil Həsənli, əli qana batan İsa Qəmbər, xəyanətkar Arif Hacılı, səsi batan erməni yalağı Leyla Yunus və ... mənəviyyatsızlar özlərini dağa-daşa çırpıb, zorla ictimai rəyə sırınmağa müxtəlif cəhdlər edirlər. Ancaq bu cəhdlərə baxmayaraq, biri o birinə dəymir, ikisi də heç birinə. Yəni köhnə hamam, köhnə tasdır. Fakt budur ki, hər ikisi qürub çağının son prosesini yaşamaqdadır. Artıq nə mitinq, nə piket, nə söyüş, nə alqış, nə də qarğış - heç biri bunların dadına-zadına çatan deyil. O zaman abırsızlıq etməyin, necə deyərlər, bu siyasi meydanı üzüsulu tərk edin!

---

# Əli Kərimli antimilli qüvvələrin əlaltısı rolunda çıxış edir

***Xarici qüvvələrin əlaltıları olduqlarını pozucu fəaliyyətləri ilə nümayiş etdirən AXCP sədri Əli Kərimli və ətrafı Bakı şəhərinin mərkəzində icazəsiz aksiyalar keçirməyə və qarşıdurma yaratmağa cəhd etdi. Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin və onun havadarlarının ölkədəki ictimai-siyasi sabitliyi pozmağa cəhd etmələrini onların növbəti təxribatlara cəhdləri olduğunu bildirdilər.***

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Əli Kərimli kimilər heç zaman məkrli niyyətlərinə nail ola bilməyəcəklər"



- Azərbaycan demokratik-hüquqi dövlətdir və Azərbaycan vətəndaşlarına konstitusiyamızla və müvafiq qanunlarımızla kütləvi aksiyalar keçirmək hüququ verilibdir. Bu hüquqdan da ən çox istifadə edən müxalifət partiyaları, xüsusilə də, dağıdıcı müxalifət olub. Amma onlar icazəli və icazəsiz aksiyalar keçirsələr belə, sonda uğursuzluğa düçar olurlar. Çünki xalq bu qüvvələri istəmir və onlar tərəfindən keçirilən hər hansı bir tədbirdə belə iştirak etmirlər. Müxalifətin özü də, çox yaxşı bilir ki, onların xalq tərəfindən heç bir dəstəyi yoxdur və bundan sonra da ola bilməz. O ki qaldı Ə.Kərimlinin təmsil olunduğu "Milli Şura" deyilən qurumun keçirdiyi icazəsiz aksiyalara, əlbəttə ki, "Milli Şura"nın keçirdiyi təxribat xarakterli icazəsiz aksiyaların qarşısı alınmalı idi. Əgər sizə aksiyalar keçirmək üçün yer verilibsə, onda nəyə görə, sizə icazə verilən yerdə aksiya keçirmirsiniz? Niyə icazəli yox, icazəsiz aksiya keçirməyə cəhd edirsiniz? Bu gün Azərbaycanı istəməyən çoxlu sayda qüvvələr var və həmin qüvvələr var gücləri ilə çalışırlar ki, Azərbaycanda stabilliyi pozsunlar, amma Ə.Kərimli kimilər heç zaman məkrli niyyətlərinə nail ola bilməyəcəklər.

### TOHGMİB-nın sədri Emin Həsənli: "Əli Kərimli xaricdən maddi və mənəvi dəstək alır"

- Müxalifət hər zaman olduğu kimi, bu dəfə də, heç kəsə lazım olmayan mənasız aksiyalar keçirməklə, gündəmə gəlməyə cəhd etdi. Amma onların ölkəmizlə bağlı məqsədini hər kəs bilir ki, Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq, inkişafımıza qara yaxmaqdan ibarətdir. Yəni müxalifət düşərgəsini təmsil edən şəxslərin işi-gücü ancaq iqtidarın apardığı işə qara yaxmaq və ağa qara deməkdən ibarətdir. Bütün bunlar, səbəbsiz yerə deyil. Onları məkrli planlar qurmağa və həyata keçirməyə təhrik edən xarici qüvvələr var. Hansı ki, Ə.Kərimli, C.Həsənli, A.Hacılı və digərləri onlardan maddi və mənəvi dəstək alırlar. Ancaq nə xarici qüvvələrin, nə də ki, daxildə olan qüvvələrin nə etmələrindən və nə istəmələrindən asılı olmayaraq, heç vaxt ölkəmilə bağlı məkrli planları baş tutmayacaq. Çünki xalqımız kimin kim olduğunu yaxşı bilir. Müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur. Belə olan halda, "Milli Şura" və digər müxalif qurumların pozucu niyyətləri və planları heç zaman baş tutmayacaq.



***GÜLYANƏ***

---

## Narkotik vasitələrin satışı ilə məşğul olan keçmiş məhkum yaxalanıb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti uğurlu əməliyyat keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, A.Qarayevə və Z.Zeynallıya narkotik vasitə satmaqda şübhəli bilinən Lökbatan qəsəbə sakini, əvvəllər məhkum olunmuş R.İbrahimov Qaradağ Rayon Polis İdarəsinin 10-cu polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Ətrafında aparılmış tədbirlərlə onun evindən 642 qrama yaxın marixuana, 296 qrama yaxın tiryək, 684 ədəd metodon və 1 ədəd avtomat patronu aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.

# Azərbaycanda hüquq və azadlıqların məhkəmə təminatı

***Məhkəmə sisteminin müasirləşməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və işinin keyfiyyətinin yüksəldilməsi, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və tədrisi, korrupsiya, süründürməçilik və digər neqativ halların aradan qaldırılması, ümumiyyətlə, fəaliyyətin səmərəliliyinin artırılması üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq qanunlara mütərəqqi dəyişikliklər edilərək, Məhkəmə-Hüquq Şurasının fəaliyyət mexanizmləri təkmilləşdirilmiş, hakimlərin müstəqilliyinin əlavə təminatı müəyyən olunmuş və məhkəmə hakimiyyətinin özünüidarə funksiyaları daha da genişləndirilmişdir.***

Məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə ölkədə 20-dək yeni, o cümlədən, regional apellyasiya və ixtisaslaşmış məhkəmələr yaradılmış, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan yeni məhkəmə binaları tikilib istifadəyə verilmiş, ilk dəfə olaraq, inzibati ədliyyə institutu, habelə, respublikanın yeddi regionunda inzibati məhkəmələr təsis olunmuş, hakim ştatlarının sayı 2 dəfə, məhkəmə aparatı işçilərinin sayı isə 75% artırılmış, beynəlxalq təcrübəyə uyğun olaraq, hər bir hakim üçün köməkçi ştatı müəyyən edilmişdir.

Ötən dövrdə korrupsiyanın və digər neqativ halların aradan qaldırılması üzrə Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilmiş tədbirlər çərçivəsində 200-dək hakim barədə intizam icraatı başlanılmış, kobud qanun pozuntularına və fəaliyyətlərinin qiymətləndirilməsi nəticələrinə görə, 70-dən çox hakim məhkəmə sistemindən kənarlaşdırılmış, insan haqlarının kobud tərzdə pozulmasına, habelə, vətəndaşların hüquqlarının həyata keçirilməsinə süni maneələr törətməklə, korrupsiyaya şərait yaradan hallara yol verdiklərinə görə, bəzi hakimlərə intizam cəzası, o cümlədən, töhmət verilmişdir.

Hakimlərin və məhkəmə işçilərinin tədrisinin məhkəmə səhvlərinin aradan qaldırılmasında mühüm əhəmiyyəti nəzərə alınaraq, nüfuzlu beynəlxalq təşkilatlar, tanınmış ekspertlər və təcrübəli hakimlərin iştirakı ilə hakim və məhkəmə aparatı işçilərini əhatə edən silsilə tədris tədbirləri təşkil olunmuş, insan haqları, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması, etik davranış qaydaları ilə bağlı mövzular tədris olunmuşdur.

Hüquq və azadlıqların məhkəmə təminatı hüququ ilə bağlı 1982 müraciət daxil olmuşdur. Bu hüququn pozulması ilə bağlı şikayətlər, əsas etibarilə, məhkəmədə işə baxılma vaxtı və yeri haqqında məhkəmə prosesinin iştirakçılarına müvafiq xəbərdarlığın (bildirişin) göndərilməməsi və ya gec göndərilməsi, bəzi hakimlər tərəfindən tərəflərin bərabərliyinə və çəkişmə prinsipinə əməl edilməməsi, məhkəmə iclası zamanı, bəzən tərəflərin vəsadətlərinə və sübut kimi təqdim etdikləri sənədlərə diqqət verilməməsi, məhkəmə qərarlarının surətinin tərəflərə verilməməsi və ya vaxtında göndərilməməsi, məhkəmə qərarlarında texniki səhvlərə yol verilməsi, apellyasiya və kassasiya şikayətlərinin aidiyyəti üzrə göndərilməsi üzrə tərəflərin məlumatlandırılmaması, süründürməçilik halları, qərarların icraya vaxtında yönəldilməməsi və hakimlərin məhkəmə qərarlarının icrasına nəzarət etməməsi ilə bağlı olmuşdur.

Müvəkkilin ünvanına ayrı-ayrı məhkəmələrin hakimləri ilə bağlı daxil olmuş şikayətlərlə əlaqədar müxtəlif vaxtlarda Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasına müvafiq məlumatlar göndərilmiş, həmçinin, şikayətlərdə əks etdirilmiş halların araşdırılması ilə bağlı müraciətlər olunmuş və lazımi tədbirlər görülmüşdür.

Məhkəmələr tərəfindən müraciətlərin qanunla müəyyən edilmiş müddətlərdə cavablandırılması, habelə, prosessual qanunvericiliklə məhkəmələrin üzərinə düşən vəzifələrin vaxtında və kəsirsiz yerinə yetirilməsi şikayətlərin azalmasına imkan yaradır.

Məhkəmə qərarlarının verilməsi ilə bağlı şikayətlər əsasında müvafiq məhkəmə orqanlarına göndərilmiş sorğulara verilmiş cavablarda qərarların ərizəçiyə vaxtında göndərildiyi, müraciətdən sonra isə, hətta təkrarən göndərildiyi bildirilsə də, araşdırma zaman, bir sıra hallarda, bunun həqiqəti əks etdirmədiyi məlum olur.

Müraciətlərin təhlili göstərir ki, bəzi hallarda məhkəmənin qərarı işdə iştirak edən şəxslərə vaxtında göndərilmir ki, bu da, onların məhkəməyə təkrar müraciət etmək hüququnun pozulmasına, həmin qərardan yuxarı instansiya məhkəməsinə müraciət etmək hüququnun pozulması ilə nəticələnmiş, məhkəmə tərəfindən vətəndaşa işin gedişi ilə bağlı vaxtında məlumat verilməməsi isə, süründürməçiliyə və haqlı narazılığa səbəb olmuşdur. Məhkəmələrdə süründürməçilik hallarına yol verilməsi ilə bağlı daxil olmuş müraciətlər üzrə də tədbirlər görülmüşdür.

Bəzən məhkəmələr tərəfindən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin islah işlərinə cəlb edilməsi, nəticə etibarilə, müvafiq qərarlar üzrə icra işlərinin icra edilməsinə imkan vermir. Belə ki, əcnəbilərin respublikamızda işlə təmin edilməsi xüsusi qanuni prosedurları həyata keçirilir və işəgötürən hər bir belə əcnəbiyə görə, müəyyən edilmiş qaydada rüsum ödəməlidir.

Aztəminatlı vətəndaşların imkanları nəzərə alınmaqla, Bakıda və respublikanın şəhər və rayon mərkəzlərində dövlət büdcəsindən maliyyələşən və ödənişsiz xidmət göstərən hüquq məsləhətxanalarının yaradılması da zəruridir. Bu da, hüquq pozuntularının, məmur özbaşınalığının qarşısının alınmasına imkan yaradardı.

Vəzifəli şəxslər və məmurlar, habelə, vətəndaşlar tərəfindən qanunun tələblərinə əməl edilməsi korrupsiyaya qarşı mübarizədə ən təsirli vasitədir.

Prezident İlham Əliyevin “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransındakı yekun nitqində dediyi kimi, “Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə gedir və bu, öz bəhrəsini verir. Korrupsiya böyük bəladır, bütün ölkələr üçün, o cümlədən, Azərbaycan üçün. Biz həm cəza tədbirlərini tətbiq edirik, inzibati addımlar atılır, həm də institusional tədbirlər görülür.”

Azad sahibkarlıq hüququnun səmərəli təmin olunması korrupsiyaya qarşı mübarizədə ciddi amildir. Müvəkkil sahibkarlığın inkişafına süni maneələrin qarşısının alınması, onların fəaliyyətinə lüzumsuz müdaxilələrə son qoyulması məqsədilə, mövcud sahədə həyata keçirilən tədbirlərin davamlı xarakter almasının önəmli olduğunu bildirmişdir. Bu baxımdan, sahibkarlığın inkişafının stimullaşdırılması, əlverişli biznes mühitinin təmin edilməsi, xüsusi razılıq verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, lisenziya tələb olunan fəaliyyət növlərinin sayının 59-dan 37-yə endirilməklə, onun verilməsinin “ASAN Xidmət” mərkəzlərinə həvalə edilməsi, dövlət rüsumunun məbləğinin Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılması, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan sənədlərin verilməsini təmin edən “Elektron lisenziya” portalının yaradılması üzrə ölkə Prezidentinin göstərişləri, habelə, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi xüsusi əhəmiyyət daşımaqdadır.

Ölkə Prezidentinin müvafiq fərmanları ilə respublikada maliyyə sisteminin sabitliyinin və dayanıqlılığının, habelə, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, şəffaflığın və çevikliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin, həmçinin, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çoxpilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında, habelə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında apellyasiya şuralarının yaradılması olduqca əhəmiyyətli addımdır.

İqtisadi həyatın müxtəlif sahələrində fəaliyyətin “bir pəncərə” prinsipi üzrə təşkili tədbirlərinin həyata keçirilməsi, habelə, vətəndaşların, o cümlədən, sahibkarların məlumatlandırılması və maarifləndirilməsi istiqamətində davam etdirilən tədbirlər də, korrupsiyaya qarşı mübarizədə ciddi əhəmiyyət kəsb etməkdədir.

Şikayətlərdə vəzifəli şəxslərin qanunsuz hərəkətləri və müxtəlif pozuntulara yol verməsi ilə bağlı məlumatlarla yanaşı, qanunçuluğu, hüquq qaydalarını, vətəndaşların hüquq və qanuni maraqlarını təmin etməyə məsul olan bəzi dövlət orqanlarının və təşkilatların fəaliyyətindən narazılıq halları da öz əksini tapmışdır.

Müvəkkil şikayətlərdə məmurlar tərəfindən korrupsiyaya yol verilməsi ilə bağlı öz əksini tapmış məlumatların yoxlanılması və təsdiq edildiyi təqdirdə, günahkar şəxslərin qanunvericiliyin tələblərinə müvafiq cəzalandırılması məqsədilə prokurorluq orqanlarına, habelə, müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri ilə bağlı olduqda, bilavasitə həmin qurumlara müraciətlər etmiş, bu məsələləri diqqətdə saxlamış və müvafiq tədbirlər görülmüşdür.

Cəzasızlıq məmur özbaşınalığına, bununla yanaşı, yeni pozuntulara və vətəndaşların ciddi narazılığına səbəb olur. Sosial-iqtisadi həyatın hər bir sahəsində şəffaflığın təmin edilməsini korrupsiyaya qarşı mübarizədə ciddi amil hesab edən Müvəkkil ötən dövrdə bir sıra sahələrdə struktur islahatlarının aparılasını, nəticə etibarilə, mənzil-istismar sahələrinin ləğv edilməsini və səlahiyyətlərinin bələdiyyələrə verilməsini, tibbi-sosial ekspert komissiyalarının işinin yenidən qurulmasını, ünvanlı dövlət sosial yardımlarının təyin və təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsini təklif etmiş, müvafiq sahələrdə işin yenidən qurulması üzrə tədbirlərin sürətləndirilməsini zəruri hesab edir.

Korrupsiyaya şərait yaradan əsaslı problemlərdən biri də vətəndaşların müraciət etdiyi dövlət orqanları, idarə, müəssisə və təşkilatlar tərəfindən müvafiq şikayətlərin və ya ərizələrin, habelə, onlara əlavə edilmiş sənədlərin qəbul edilməsi, qeydiyyata alınması və sənədlərin verilməsi prosesindəki bürokratik əngəllərdir ki, bu da, idarəetmənin daha da təkmilləşdirilməsini tələb edir.

Sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsinə, azad sahibkarlığın inkişafına real təminatlar verilməsi, münbit biznes mühitinin yaradılması məqsədilə orta və kiçik sahibkarlıq subyektlərinə gömrük və vergi güzəştlərinin tətbiqi, şəffaflığın artırılması, inhisarçılığa, haqsız rəqabətdə və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, sərbəst rəqabətin təmin edilməsi, bu tələbləri pozanlara qarşı mübarizə istiqamətində zəruri tədbirlərin görülməsinə dair tapşırıqlar hər bir dövlət qurumu və vəzifəli şəxs tərəfindən proqram sənədi kimi icra edilməlidir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## “Nar” fiziki məhdudiyyətli idmançılara dəstək olur

“Nar” aztəminatlı ailələrdən olan gənc boksçuların və fiziki məhdudiyyətli idmançıların dünya miqyasında Azərbaycanı təmsil etməsinə dəstək olmaqda davam edir. Mobil operatorun dəstək olduğu “Ümid” İdman Klubunun üzvü Böyük Britaniyanın paytaxtı Londonda keçirilən para üzgüçülük üzrə Dünya Çem-



pionatında qələbə qazanıb. Belə ki, “Ümid” İdman Klubunun üzvü olan Roman Soley üzgüçülüyün sərbəst, arxa üstə üzmə növlərində yarışaraq 3 medal qazanıb. Bununla da, Roman Soley “Tokio 2020” Yay Paralimpiya Oyunlarına birbaşa 4 lisenziya əldə edib.

Xatırladaq ki, “Nar” “Ümid” İdman Klubunun üzvlərinin Paralimpiya Oyunlarına lisenziya qazanması üçün Avropa və dünya yarışlarına hazırlaşmasına öz töhfəsini verir. Layihə çərçivəsində klub idmançılarına lazım olan təchizatı “Nar” təmin edir. Qeyd edək ki, 2008-ci ildə yaradılmış “Ümid” İdman Klubu atletika, üzgüçülük, cüdo və uşaq şahmatı idman növləri üzrə ixtisaslaşıb. Bu müddət ərzində “Ümid” İdman Klubunda ölkə, Avropa və dünya çempionları və Olimpiya Oyunlarının finalçıları yetişib.

“Nar” peşəkar idmanla məşğul olan gənclərin və yeniyetmələrin, eyni zamanda fiziki məhdudiyyətli idmançıların dünya miqayasında Azərbaycanı təmsil etməsinə hər zaman dəstək olur. “Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə əhalisinin 97,5 %-ni əhatə edir və 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Təbrik edirik!

***Bu gün Sona xanım Həmidovanın ad günüdür. Sona xanım milli və dövlətçilik maraqlarının dünyada təbliği uğrunda fəal mübarizə aparmaqla yanaşı, həm də müstəqil Azərbaycan dövlətinin inkişafı və möhkəmlənməsi işində qadınlarımızın daha fəal iştirakına nail olmaq, Ulu Öndərimiz Heydər Əliyev ideyalarına sadiqlik yolunda çalışanlardandır. Sona xanımı ad günü münasibətilə təbrik edir, uzun və mənalı ömür, can sağlığı, fəaliyyətində dönməzlik və əzmkarlıq arzulayıram.***



*Vətəni sevirsən, qətiyyətlisən,*
*Sənə bəxş edirəm bir dəstə çiçək.*
*Dövlətə, millətə sədaqətlisən,*
*Ay Sona, ad günün olsun mübarək!*

*Çox kövrək xanımsan, duyğuların saf,*
*Eşq xülyasının dumanındasan.*
*Səni sevənlərə qayğıların saf,*
*Sevgi-məhəbbətin ümmanındasan.*

## BAŞSAĞLIĞI

Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının İdarə Heyəti YAP Yasamal rayon təşkilatı qadınlar şurasının sədri

**Tamella Heybət qızı Şahbazovanın**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

## “Azerbaijan Digital HUB” proqramı “Eurasia İnnovation Day” tədbirində təqdim olunub

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan “AzerTelecom” şirkətinin strategiya üzrə müşaviri Azər Bayramov Bakıda Heydər Əliyev Mərkəzində “InnoWeek - İnnovasiya həftəsi” çərçivəsində keçirilmiş 2-ci “Bakı Elektron Ticarət Forumu (BEF-2019)” və “Eurasia İnnovation Day” tədbirlərində moderator və məruzəçi qismində iştirak edib.




21-22 oktyabr tarixlərində 2-ci “Bakı Elektron Ticarət Forumu çərçivəsində baş tutmuş “Elektron ticarət infrastrukturunda yeni texnoloji trendlər: perspektivlər və təhdidlər” mövzusunda sessiya Azər Bayramovun moderatorluğu ilə keçirilib. Sessiyada kibertəhlükəsizlik, elektron imza, süni intellekt, robototexnika və blokçeyn kimi mövzular ətrafında faydalı müzakirələr aparılıb.




Həmçinin, 23 oktyabr tarixində “Eurasia İnnovation Day” çərçivəsində “İnnovasiya və Texnologiya” panel müzakirəsində “AzerTelecom” şirkətinin nümayəndəsi “Made in Azerbaijan: İnnovasiyalar və Texnologiyalar” mövzusunda məruzə edib. Azər Bayramov dünya xəritəsində Azərbaycanın innovativ və texnoloji mərkəz kimi tanınması istiqamətində işlərdən danışıb. Xüsusilə, “AzerTelecom” tərəfindən həyata keçirilən “Azərbaijan Digital HUB” proqramı haqqında iştirakçılara geniş məlumat verib. Bildirilib ki, proqram çərçivəsində iri infrastruktur quruculuğu layihələrinin icrası ilə ölkəmiz Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün rəqəmsal mərkəzə çevriləcək və gələcəkdə bu regionların internet və kontentə olan ehtiyacının təmin edilməsində mühüm rol oynayacaq. Proqram innovasiyaların, rəqəmsal xidmətlərin “Made in Azerbaijan” brendi altında qonşu regionlara ixracına, ümumilikdə isə ölkəmizin İKT sektorunun inkişafına, rəqəmsal ekosistemin formalaşmasına öz töhfəsini verəcək.

Qeyd edək ki, “Eurasia İnnovation Day” tədbiri Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və “Huawei” şirkətinin birgə təşkilatçılığı ilə keçirilib. Ümumilikdə, “InnoWeek - İnnovasiya həftəsi” 18-24 oktyabr tarixlərində baş tutub. NRYTN-in Heydər Əliyev Mərkəzi ilə birgə keçirdiyi layihə çərçivəsində yüksək texnologiyalar, innovasiyalar sahəsində ən son yeniliklərin əks olunduğu konfrans, forum və sərgilər təşkil olunub.

## “Forbes” Rusiyanın ən varlı qadınlarının siyahısını açıqladı



“Forbes” Rusiyanın ən varlı qadınlarının adlarını dərc edib, siyahıda ilk yeri yenidən Yelena Baturina tutub. AZƏRTAC xəbər verir ki, nəşr Moskva şəhərinin sabiq meri Yuri Lujkovun həyat yoldaşının varidatını 1,2 milyard dollar həcmində qiymətləndirib. Rusiyanın paytaxtında fəaliyyət göstərən ən iri developer kompaniyalarından birinin sahibi Yelena Baturina artıq yeddi ildir ki, reytinqə başçılıq edir.

Siyahıda ikinci yeri Rusiyanın ən iri internet-mağazası “Wildberries”in qurucusu Tatyana Bakalçuk tutub (1 milyard dollara yaxın). Reytinqə ilk dəfə daxil olan “Rossiya” bankının auksioneri Yuri Kovalçukun həyat yoldaşı Tatyana Kovalçuk birbaşa 3-cü pillədə qərarlaşıb (600 milyon dollar). Rusiyanın ən varlı beş qadını sırasında, həmçinin milyarder Dimitri Rıbolovlevin həyat yoldaşı Yelena (600 milyon dollara yaxın) və “Proqress” kompaniyasının səhmdarı Olqa Belyavtseva (550 milyon dollar) yer alırlar. Jurnalın hesablamalarına görə, reytinq iştirakçılarının ümumi varidatı rekord göstəriciyə - 9,9 milyard dollara çatıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**